QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 032 (6232) 19 fevral 2021-ci il Qiyməti 40 qəpik "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Ankarada Türkiyə-Azərbaycan biznes forumu keçirilib



Fevralın 18-də Ankarada Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun və Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın rəhbərliyi ilə Türkiyə-Azərbaycan Biznes Forumu keçirilib. AZƏRTAC xəbər verir ki, forumda iki qardaş ölkənin hökumət nümayəndələri, iş adamları, şirkət rəhbərləri, biznes və ticarət sahələrini təmsil edən...

Bax 3

# Qarabağımızı cənnətə çevirəcək böyük layihələr

*İlham Əliyev: "Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik"*



Bax 2

## Dmitri Savelyev: Prezident İlham Əliyevin Qarabağ siyasəti tam bəhrəsini verdi



Prezident İlham Əliyev və Nikol Paşinyanın iştirakı ilə Münxendə keçirilən debat əlamətdar hadisə idi. Çünki bu debat zamanı iki lider və ölkələr arasındakı uçurum bütün dünya siyasi elitası üçün aydın oldu. Bu barədə Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası...

Bax 6

## Qiymət artımı: təbiidir, yoxsa süni?



Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin ötən gün keçirilmiş "2020-ci ilin yekunları" adlı onlayn konfransında Xidmətin rəis müavini Məmməd Abbasbəyli bildirib ki, hazırda qiymətlərin süni artırılması üzrə hansısa qanun pozuntusu...

Bax 8

## Aşıq Ələsgərin 200 illiyi keçiriləcək



Prezident İlham Əliyev fevralın 18-də Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, qüdrətli söz ustadı Aşıq Ələsgərin 200 illiyinin keçirilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsi Aşıqlar Birliyinin təklifləri...

Bax 6

## Ermənistan "anti-Türkiyə alyansı"na niyə qatılmadı?

Bax 9




Fevralın 11-də Yunanıstanın paytaxtı Afinada qeyri-formal "Anti-Türkiyə alyansı" kimi təqdim edilən yeddi ölkənin - Yunanıstanın, Kiprin rum kəsiminin, Fransanın, Misirin, Səudiyyə Ərəbistanının, Bəhreynin və Birləşmiş Ərəb Əmirliklərinin birgə toplantısı olub. Söz yox ki, bu kimi toplantının məqsədi də məhz...

## Pensiyaçılara şad xəbər



Bax 8

## Cəllad Sarkisyan: Dünən və bu gün




Bax 11

## Buffon XXI əsrin ən yaxşı qapıçısı seçildi!




Bax 16

# Qarabağımızı cənnətə çevirəcək böyük layihələr

*İlham Əliyev: "Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik"*

**Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunmuş rayonlara tarixi səfərləri və ən əsası isə, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm də mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş rayonlara səfərləri həmişə böyük maraq və ruh yüksəkliyi ilə qarşılanır. Dövlətimizin başçısının hər səfəri həm də böyük əhəmiyyət daşıyan əlamətdar hadisələrlə yadda qalır.**




Azərbaycan Prezidentinin budəfəki səfərində də ilkin infrastruktur layihələrinin təməlqoyma mərasimlərinin keçirilməsinin və açılışının şahidi olduq. Hər səfər zamanı yeni layihələrin həyata keçirilməsi dövlət başçımızın qeyd etdiyi kimi, biz tezliklə doğma Qarabağımızı cənnətə çevirəcəyik. İşğaldan azad edilmiş ərazilərdə görülən işlər, həyata keçirilən tədbirlər bunu deməyə əsas verir. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

## Azad edilmiş torpaqlarda yenidənqurma və bərpa işləri

Hərbi əməliyyatların bitməsindən sonra Prezident İlham Əliyevin mütəmadi olaraq işğaldan azad edilmiş rayonlara səfər etməsi dövlət başçısının bu məsələlərə nə dərəcədə həssas yanaşdığının sübutudur. Prezidenti İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olarkən yeni layihələrin həyata keçirildiyinin şahidi olduq.

İşğaldan azad edilmiş bütün şəhər və rayonların baş planlarının hazırlanması ilə bağlı Prezidentin tapşırığının icrası hazırda yüksək sürətlə davam etməkdədir. Dövlət başçısı bütün çıxışlarında, müsahibələrində dəfələrlə vurğulayıb ki, azad edilmiş torpaqlarda bərpa işləri ən yüksək səviyyədə təşkil olunacaq. Bu səfər zamanı da bir daha mənfur düşmənə mesaj göndərdi, çatdırdı ki, onların dağıtdıqları, viran qoyduqları, oğurladıqlarına son qoyaraq "dəmir yumruğ"umuzla başlarına vuraraq it kimi torpaqlarımızdan qovduq və bu gün bu yerləri cənnətə çevirəcəyik: "Mən demişdim ki, azad edilmiş torpaqlarda bütün bərpa işləri ən yüksək səviyyədə təşkil olunacaq. Dağılmış bütün bu kəndləri biz bərpa edəcəyik. Baxın, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi nə günə salıb. Vandallar, barbarlar işğal dövründə bütün binaları söküblər, talayıblar, daşları oğurlayıblar. Hamısını bərpa edəcəyik".

## "Azad edilmiş bütün torpaqlarda su, günəş, külək enerjisindən istifadə edəcəyik"

Dövlət başçısı səfəri zamanı ilk su elektrik stansiyasının açılışını edərkən bildirmişdi ki, bu layihə azad edilmiş torpaqlarda birinci elektrik stansiyası olacaq: "Artıq Güləbird kəndindəyik. Güləbird kəndini də düşmən dağıdıb, talan edib. Güləbird kəndinə gəlməyimizin səbəbi qısa müddət ərzində inşa edilmiş su elektrik stansiyasının açılışıdır və bu layihə azad edilmiş torpaqlarda birinci elektrik stansiyası olacaq, digər stansiyalar da tikiləcək. Azad edilmiş bütün torpaqlarda su, günəş, külək enerjisindən istifadə edəcəyik".

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Güləbird kəndində Azərbaycan bayrağını qaldırdıqdan sonra bildirdi ki, azad edilmiş torpaqlara yenidən gəlmişik və məqsədimiz də bu torpaqlarda yeni layihələrin həyata keçirilməsi, daha doğrusu bu torpaqlara yeni həyatın qaytarılmasıdır: "Bu gün bu torpaqlarda bir neçə tədbir keçirilir. Bu tədbirlərin məqsədi azad olunmuş torpaqları tezliklə bərpa etməkdir ki, insanlar buraya qayıtsınlar və bu torpaqlara həyat gəlsin. Bərpa işləri arasında elektrik enerjisi təchizatı, əlbəttə ki, xüsusi yer tutur. Bu məqsədlə müharibədən dərhal sonra ilk günlərdən biz bu işlərlə məşğul olmağa başlamışıq. İlk növbədə, Şuşa şəhərini elektrik enerjisi ilə təchiz etmək üçün əməli addımlara start verilmişdir və birinci mərhələ başa çatıb. "Azərişıq" artıq Şuşa şəhərinə elektrik xətlərini çəkib. Şuşa şəhərini dayanıqlı elektrik enerjisi ilə təmin etmək və ondan sonra şəhərin inkişafını təmin etmək üçün "Azərenerji" Səhmdar Cəmiyyəti də Şuşa şəhərinə yüksəkgərginlikli xətləri çəkir və Şuşa şəhərində elektrik yarımstansiyası inşa edir".

## İşğaldan azad edilmiş torpaqlarda istismara verilən ilk elektrik stansiyası - Güləbird Su Elektrik Stansiyası

Prezident İlham Əliyev səfər zamanı növbəti layihənin açılışını edərkən bildirib ki, azad edilmiş torpaqlarımızda istismara verilən Güləbird Su Elektrik Stansiyası ilk stansiyadır: "Bu gün biz 8 meqavat gücündə Güləbird Su Elektrik Stansiyasının açılışını qeyd edirik. Bu, azad edilmiş torpaqlarda istismara verilən birinci elektrik stansiyasıdır və bunun çox böyük əhəmiyyəti, böyük rəmzi mənası var. Biz qayıdırıq bu torpaqlara. Biz Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyalarını bərpa edəcəyik. Düşmən təkcə Laçın rayonu ərazisində 5 su elektrik stansiyasını dağıdıb. Onların hamısı bərpa ediləcək. Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulacaq. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonlarında dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Bu, çox böyük generasiya gücüdür".

Prezident İlham Əliyev çıxışı zamanı onu da söyləyib ki, enerji sahəsinədə böyük enerji layihələri həyata keçirəcəyik və bununla da bu əraziləçri dayanıqlı enerji ilə təmin edəcəyik: "Bu generasiya gücü ilə biz bu əraziləri bərpa edəcəyik, dayanıqlı enerji ilə təmin edəcəyik. Əgər biz nəzərdə tutduğumuz digər layihələrə də nəzər salsaq görərik ki, bərpaolunan enerji növlərinin bu bölgədə çox böyük potensialı var. Onların arasında ən böyük potensiala "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyaları malik olacaqdır. Bu stansiyaların tikintisi ilə bağlı İran İslam Respublikası ilə razılığa gəlmişik. Yaxın gələcəkdə bu su elektrik stansiyaları tikiləcək və beləliklə, Azərbaycan tərəfinə bu stansiyaların fəaliyyətindən düşən generasiya gücü 120 meqavat olacaqdır. Yəni, biz bir neçə ildən sonra 120 meqavat "Xudafərin" və "Qız Qalası" stansiyalarından, 120 meqavat isə Kəlbəcər və Laçın rayonlarındakı su elektrik stansiyalarından alacağıq. Bu, 240 meqavat generasiya gücü deməkdir və bunun üstünlüyü odur ki, bu, su elektrik stansiyalarıdır və enerjinin maya dəyəri çox aşağıdır. Bununla paralel olaraq, artıq göstəriş vermişəm ki, bizim azad edilmiş bütün digər torpaqlarda bərpaolunan enerji növlərinin və yerlərin müəyyənləşdirilməsi prosesinə start verilsin. Belə bir göstəriş verildi və bu gün Zəngilan rayonunda birinci pilot "ağıllı kənd" layihəsi də məhz bərpaolunan enerji ilə təchiz ediləcəkdir".

## Qarabağ bölgəsi "Yaşıl enerji" zonası kimi dünya üçün bir nümunə olacaq

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfərləri zamanı dövlət başçısı, xüsusilə bir məqama toxunaraq bildirib ki, erməni işğalından azad olunmuş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının reallaşdırılması nəzərdə tutulur. Qeyd edək ki, ilk "ağıllı kənd" layihəsi Zəngilan rayonunun Ağalı kəndində icra edilir. Kənddə layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələridir.

Prezidentin göstərişilə azad edilmiş bütün torpaqlarda bərpaolunan enerji növləri və yerləri müəyyənləşdirilir. Prezident İlham Əliyev çıxışlarında azad olunmuş ərazilərin "yaşıl enerji" zonasına çevriləcəyini dəfələrlə bildirib. Nədir "yaşıl enerji zonası?".

Bərpaolunan ya da yaşıl enerji - insan varlığı miqyasında tükənməz enerjidir. O təbiətdə hər an təbii olaraq mövcud olan proseslərin insanların ehtiyacları üçün istifadə olunması ilə əldə olunur. Bir neçə bərpaedilən enerji çeşidləri vardır:

Ardı Səh. 3

# Qarabağımızı cənnətə çevirəcək böyük layihələr

*İlham Əliyev: "Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik"*

Əvvəli Səh. 2

Külək enerjisi - küləyi meydana gətirən hava axınının sahib olduğu hərəkət (kinetik) enerjisidir. Külək enerjisi digər alternativ enerji mənbələri olan günəş, hidroenergetika, geotermal və biokütlə enerjisindən özünün maya dəyərinə, ekoloji təmizliyinə və tükənməzliyinə görə ən sərfəlisidir. Küləyin gücündən çox keçmiş illərdən bəri faydalanırlar. Taxıl üyüdmə, su nasosla vurma, ağac kəsmə işləri üçün də külək gücündən faydalanılmışdır. İndiki vaxtda daha çox elektrik çıxarmaq məqsədiylə istifadə edilməkdədir. Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin böyük potensialı var.

Günəş enerjisi - Günəş işığından enerji əldə edilməsi texnologiyası. Yer səthinə düşən Günəş enerjisinin miqdarı bütün digər yanacaq ehtiyatlarından çoxdur. Ekspetlərin sözlərinə görə Günəş enerjisinin yalnız bir çatışmazlığı var - o da atmosferin vəziyyətindən, günün və ilin vaxtından asılılıqdır. Zəngilan, Cəbrayıl rayonlarında daha çox günəş enerjisinin böyük potensialı var. Məhz bu səbəbdən də "yaşıl enerji" zonası Qarabağın cənnətə çevrilməsində mühüm rol oynayacaq. Yalnız Kəlbəcər və Laçın rayonlarında bərpa ediləcək stansiyaların generasiya gücü 140 meqavat olacaqdır. "Xudafərin" və "Qız qalası" su elektrik stansiyalarından da əlavə 140 meqavat güc alınacaq. Dövlət başçısı səfəri zamanı bildirmişdir ki, azad edilmiş torpaqlar "yaşıl enerji" zonası olacaq: "Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirməliyəm ki, bütün əsas işləri dövlət olaraq biz özümüz görürük və görəcəyik. Xarici və yerli investorlar investisiya qoymaqla həm öz biznes maraqlarını təmin edə bilərlər və həm də Azərbaycanı uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin etmək üçün öz sözlərini deyə bilərlər. Bizim planlarımız bundan ibarətdir. Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı var. Zəngilan, Cəbrayıl rayonlarında daha çox Günəş enerjisinin böyük potensialı var. Artıq ilkin tədqiqatlar aparılıb və beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq Qarabağı "yaşıl enerji" zonasına çevirəcəyik".

## Azərbaycanı Naxçıvanla birləşdirəcək ən böyük layihə - Horadiz-Ağbənd dəmir yolu

Prezident Ilham Əliyev bu səfəri zamanı Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoymaqla yeni infrastrukturun yaradılması işini başlatmış oldu. Heç şübhəsiz, bu sektorda ən böyük layihə Azərbaycanı Naxçıvanla birləşdirəcək Mehri nəqliyyat-kommunikasiya infrastrukturu olacaq ki, hazırda bunun üçün hazırlıq işləri aparılır. Bunu strateji əhəmiyyət daşıyan layihə kimi dəyərləndirən dövlətimizin başçısı onun qardaş Türkiyə ilə Azərbaycan arasında xüsusi əhəmiyyətli kommunikasiya olacağını da bildirib. Tikintisinə start verilən Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun əhəmiyyətini vurğulayan Prezident deyib: "Bu gün Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun təməl daşı qoyuldu. Bu dəmir yolunun çox böyük strateji əhəmiyyəti var. İlk növbədə ona görə ki, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Artıq bu işlərə start verildi. Bizim təşəbbüsümüzlə həyata keçirilən bu layihə, əminəm ki, icra ediləcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək".

Dövlətimizin başçısı qeyd edib ki, bu dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaq: "Biz üç il yarım bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunu istismara verdik. Bu da tarixi nailiyyət idi. Tarixdə ilk dəfə biz Azərbaycanı və Türkiyəni dəmir yolu ilə birləşdirdik. İndi isə ikinci dəmir yolu çəkiləcək və eyni zamanda, bu yoldan bütün bölgə ölkələri istifadə edə bilərlər. Bölgə ölkələri bu yolun tikintisinə də böyük maraqla yanaşırlar. Demək olar ki, bizim bölgəmizdə yerləşən ölkələr bu layihəyə öz müsbət qiymətini vermişlər".

Bto sözlə, işğaldan azad olunmuş ərazilərin dövlətimizin başçısının birbaşa təşəbbüsü və tapşırıqları ilə bərpa edilməsi və yenidən qurulması ilə bağlı həyata keçirilən layihələr bu gün pandemiya şəraitində bütün dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Azərbaycan Prezidentinin bu təşəbbüsü bir daha dövlətimizin gücünü və qüdrətini nümayiş etdirir.

**RƏFİQƏ KAMALQIZI**

# Ankarada Türkiyə-Azərbaycan biznes forumu keçirilib

**Fevralın 18-də Ankarada Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun və Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın rəhbərliyi ilə Türkiyə-Azərbaycan Biznes Forumu keçirilib. AZƏRTAC xəbər verir ki, forumda iki qardaş ölkənin hökumət nümayəndələri, iş adamları, şirkət rəhbərləri, biznes və ticarət sahələrini təmsil edən tanınmış şəxslər iştirak ediblər.**

Forumda çıxış edən Baş nazir Əli Əsədov Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Zəfəri tarixi hadisə kimi dəyərləndirib. O, şanlı Qələbənin əldə olunmasında Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla qardaş Türkiyənin göstərdiyi siyasi, mənəvi dəstəyə görə minnətdarlığını bildirib. Əli Əsədov İraqın şumalında 13 türkün amansızcasına qətlə yetirilməsinin Azərbaycanda hiddətlə qarşılandığını forum iştirakçılarının diqqətinə çatdırıb. Baş nazir bildirib ki, hazırda Türkiyədə Azərbaycan kapitallı 2 minə yaxın şirkət fəaliyyət göstərir. Azərbaycanlı iş adamları bu baxımdan Qafqaz və Mərkəzi Asiya ölkələrindən olan iş adamları arasında liderdir.

Azərbaycan-Türkiyə əməkdaşlığının bütün sahələrdə inkişafına yeni təkan verildiyini deyən Baş nazir bildirib ki, bu, ölkələrimiz arasında ticarət dövriyyəsinin, sərmayə qoyuluşunun, turist səfərlərinin artmasına, xalqlarımızın bir-biri ilə daha da yaxınlaşmasına imkan yaradacaq.

Azərbaycanın və Türkiyənin birgə həyata keçirdiyi iri enerji layihələrinin Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığını vurğulayan Əli Əsədov deyib ki, mühüm infrastruktur layihəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə daşınan yüklərin həcmi ötən il 2 dəfə artıb.

Baş nazir deyib: Əminik ki, bu işbirliyi davam edəcək. Azərbaycan artıq 3+3 formatında yeni regional əməkdaşlıq platforması təklif edib. Bu platformanın mühüm tərkib hissəsi Naxçıvandan keçməklə Azərbaycan və Türkiyəni birləşdirəcək yeni dəhlizdir.

"Tarixi Vətən müharibəsində Zəfərdən sonra ölkəmiz üçün yeni dövr başlayıb. İşğaldan azad edilmiş torpaqların bərpası və inkişafı ilə bağlı strategiya hazırlanıb. Azərbaycan Prezidenti dediyi kimi, hədəfimiz Qarabağı dünyanın ən gözəl bölgələrindən birinə çevirməkdir. Artıq bərpa işləri başlanıb və ilkin kontraktlar imzalanıb. Əlbəttə ki, ilkin tərəfdaşlarımız türk qardaşlarımızdır", - deyə Əli Əsədov qeyd edib.

Baş nazir bildirib ki, türk şirkətləri artıq infrastruktur layihələrini icra etməyə başlayıblar. Zəfər yolu adlanan Füzuli-Şuşa yolu, həmçinin




Toğana-Kəlbəcər yolunun tikintisində artıq türk şirkətləri iştirak edirlər. Bundan əlavə, Füzulidə tikiləcək hava limanının layihəsində də türk şirkətlərinin iştirakı nəzərdə tutulub. Ümumiyyətlə, bərpa işlərinin layihələrində türk qardaşlarımızı görməkdən çox məmnunuq.

Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay çıxış edərək deyib ki, Türkiyə ilə Azərbaycan bir-birinin, sadəcə, qanı ilə, canı ilə qardaşı deyil, eyni zamanda, ən önəmli siyasi müttəfiqi, əsas ticarət tərəfdaşı və sərmayəçisidir. Azərbaycan ilə iqtisadi və ticarət münasibətlərimizi ən yüksək səviyyəyə çatdıracağımıza inanıram.

Fuat Oktay vurğulayıb ki, işğalçıların, terrorçuların qarşısında Azərbaycanın yanında olduq. Qarabağ müharibəsində şəhid olan qəhrəman Azərbaycan əsgərlərini və həlak olan 100 dinc sakin qardaşlarımızı rəhmətlə anır, qazilərimizə cansağlığı və uzun ömür diləyirəm.

Türkiyənin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpasında fəal iştirak edəcəyini bildirən Vitse-prezident deyib ki, Naxçıvan ilə Azərbaycanın digər bölgələri arasında planlaşdırılan dəhlizin açılması ilə Bakı Mərkəzi Asiya bölgəsində önəmli logistik mərkəz halına gələcək.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov forumda çıxış edərək diqqətə çatdırıb ki, nəqliyyat və tranzit sahəsi Azərbaycan və Türkiyənin ikitərəfli əməkdaşlığında mühüm sahələrdəndir. Bu gün də Türkiyə tərəfi ilə həmin sahələrlə bağlı müzakirələr aparılıb. Son illər Azərbaycan ərazisindən Türkiyə və Orta Asiyaya, eləcə də əks istiqamətdə hərəkət edən TIR-ların sayında əhəmiyyətli artım müşahidə edilib. 2020-ci ildə dinamika 2019-cu illə müqayisədə 74,4 faiz olub.

Nazir bildirib ki, Türkiyə ilə Azərbaycan arasındakı əməkdaşlıqda Preferensial Ticarət Sazişi mühüm yer tutur. 2019-cu ildə imzalanmış sazişi artıq Türkiyə parlamenti ratifikasiya edib. Martın 1-dən sənədin qüvvəyə minməsi ticarət əlaqələrimizin inkişafına töhfə verəcək. Bundan başqa, inanırıq ki, Türkiyənin Naxçıvanda ticarət attaşesi təyin etməsi, həmçinin Prezident İlham Əliyevin Sərəncamına uyğun olaraq, Azərbaycanın İstanbulda ticarət nümayəndəliyinin təsis edilməsi işlərin daha səmərəli və çevik həyata keçirilməsini təmin edəcək. Sevindirici haldır ki, Azərbaycanda türkiyəli iş adamları geniş təmsil olunur. Türkiyə və Azərbaycan müəssisələri qarşılıqlı olaraq sərmayə qoyuluşunda fəal iştirak edir. Azərbaycan-Türkiyə Birgə İnvestisiya Fondunun təsis edilməsi kimi təşəbbüslər, ölkələrarası iri müəssisələrin və iri layihələrin, xüsusilə birgə texnologiyaların mübadiləsinə istiqamətlənən layihələrin reallaşması bizim qarşımızda duran vəzifələrin daha sürətlə icrasına yardım ola bilər.

Türkiyənin ticarət naziri Ruhsar Pekcan deyib ki, Azərbaycanın Zəfəri bölgəmizin ticari və logistika infrastrukturunu dəyişən tam yeni bir dövrün başlanğıcını yaratdı. Bu yeni mərhələdə də azərbaycanlı qardaşlarımızın yanında olacağıq. Nazir diqqətə çatdırıb ki, dövlət başçılarımızın da qeyd etdiyi kimi, iki ölkə arasında ticarət dövriyyəsini 15 milyard dollara çatdırmaq əsas hədəflərimizdən biridir.

Ruhsar Pekcan qeyd edib ki, bütün dünya pandemiya səbəbindən çətin günlər yaşadığı bir dövrdə Azərbaycanın böyük bir iradə ilə Qarabağı işğaldan azad etməsi hamımızda sonsuz sevinc yaradıb. Şəhidlərimizə Allahdan rəhmət diləyir, Zəfər münasibətlə azərbaycanlı qardaşlarımızı təbrik edirik.

Azərbaycanla indiyədək 400-dən çox layihə həyata keçirildiyini diqqətə çatdıran nazir bildirib ki, artıq Türkiyə şirkətləri Qarabağın bərpası və yenidən qurulması prosesində azərbaycanlı iş adamları ilə sıx əməkdaşlıq şəraitində çalışırlar. İndiyə qədər ortaya qoyduğumuz uğurlu işləri infrastruktur layihələrində də tətbiq edəcəyik.

Forumda Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) idarə heyətinin sədri Orxan Məmmədov, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev, Türkiyə Xarici İqtisadi Əlaqələr Təşkilatının rəhbəri Nail Olpak, Türkiyə-Azərbaycan Biznes Şurasının sədri Selçuk Akat və digərləri çıxışlarında biznes, ticarət və istehsal sahələrində əməkdaşlıq əlaqələrinin yaratdığı sağlam mühitdən danışıblar.

Qırx dörd günlük Vətən müharibəsinin Qələbə ilə başa çatmasını Azərbaycanın və Türkiyənin ortaq sevinci kimi dəyərləndirən natiqlər diqqətə çatdırıblar ki, işğaldan azad olunan torpaqlarda bərpa və quruculuq işlərinin aparılması iqtisadi cəhətdən mühüm əhəmiyyət kəsb etdiyi kimi, həm də mənəvi borcumuzdur.

Forumdakı çıxışlarda Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolunun, TANAP və TAP layihələrinin bölgədə iqtisadiyyatın davamlı inkişafına yaratdığı imkanlar yüksək dəyərləndirilib. Birmənalı şəkildə ifadə olunub ki, Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri təkcə iki ölkə və xalq üçün deyil, böyük bir coğrafiyada dinamik inkişafı və firavan həyatı təmin edir. Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın siyasi iradələri və dostluq münasibətləri böyük perspektivlər vəd edir. Biznes forumun sonunda hökumət üzvləri və iş adamları arasında əməkdaşlığa dair 11 sənəd imzalanıb.

# "Zəfər salnaməsi"

**Yeni Azərbaycan Partiyası tərəfindən nəşr olunan bu kitabda Azərbaycanın Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə diplomatiya və informasiya cəbhəsində qətiyyətli mübarizə aparması, şanlı Ordumuzun 44 günlük Vətən müharibəsi zamanı xilaskarlıq missiyasını şərəflə yerinə yetirməsi nəticəsində tarixi ədalətin bərpa olunması və digər mühüm məsələlər öz əksini tapıb.**




Azərbaycanın Vətən müharibəsi zamanı möhtəşəm qələbə qazanması, uzun müddətdir ki, Ermənistanın işğalı altında olan torpaqlarımızın azad olunması, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpa edilməsi, heç şübhəsiz, xalqımızın çoxəsrlik dövlətçilik tarixinin ən şərəfli səhifələrindən biridir. Qüdrətli Azərbaycan Ordusunun 44 günlük Qələbə yürüşü nəticəsində yazılan şanlı qəhrəmanlıq dastanı unudulmaz Zəfər salnaməsi olmaqla yanaşı, dünya hərb tarixinə düşən unikal nümunədir. Əlbəttə, ölkəmizin bu tarixi nailiyyəti təsadüfi xarakter daşımır və ötən müddət ərzində həm ordu quruculuğu sahəsində, həm diplomatiya cəbhəsində görülən işlərin, eyni zamanda, beynəlxalq informasiya müstəvisində Azərbaycan reallıqlarının sistemli və məqsədyönlü şəkildə təbliğinin nəticəsidir.






O da xüsusi olaraq vurğulanmalıdır ki, Azərbaycanın bu qürurverici və əzəmətli qələbəsinin müəllifi xalqımızın Ümummilli lideri Heydər Əliyevin layiqli davamçısı möhtərəm Prezident İlham Əliyevdir. Cənab İlham Əliyev hərb meydanında müzəffər sərkərdə, diplomatik cəbhədə mahir strateq nümunəsi ortaya qoymaqla yanaşı, informasiya müharibəsində Azərbaycanın haqq-ədalət səsi oldu, qətiyyətlə və cəsarətlə bütün təzyiqləri dəf etdi, xalqın dəstəyindən güc alan prinsipial Lider kimi mübarizlik rəmzinə çevrildi. Ölkə rəhbəri ötən müddət ərzində hücum diplomatiyası həyata keçirməklə, müxtəlif beynəlxalq kürsülərdən tarixi həqiqətləri, Dağlıq Qarabağ münaqişənin tənzimlənməsi ilə əlaqədar vacib hüquqi və siyasi məsələləri diqqətə çatdırmaqla, dünya miqyasında ictimai rəyin Azərbaycanın lehinə dəyişməsini təmin etdi. Qeyd olunması vacib olan ən mühüm məsələlərdən biri budur ki, Azərbaycan Ordusunun 44 günlük müharibə zamanı ardıcıl uğurlarına paralel olaraq, dövlətimizin başçısı dünyanın nüfuzlu nəşrlərinə müsahibələri, xalqa müraciətləri zamanı bütün reallıqları dünya ictimaiyyətinin diqqətinə çatdırdı, erməni yalanlarını ifşa etdi, anti-Azərbaycan dairələrin qarayaxma kampaniyasını iflasa uğratdı. Bunun nəticəsidir ki, beynəlxalq mediada Azərbaycanın haqlı, ədalətli mövqeyini əks etdirən çoxlu sayda məlumatlar, təhlil xarakterli materiallar tirajlandı, müxtəlif süjetlər yayımlandı. Bu isə informasiya müharibəsində Azərbaycanın mütləq üstünlüyünü təmin edən mühüm amil oldu.






Bu gün də bəhs olunan məsələləri özündə ehtiva edən materiallar nəşr olunur, yerli və beynəlxalq auditoriyanın - geniş ictimaiyyətin diqqətinə təqdim edilir. Yeri gəlmişkən, Yeni Azərbaycan Partiyası tərəfindən bu günlərdə nəşr olunan "Zəfər salnaməsi" adlı kitabda Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə diplomatiya və informasiya cəbhəsində apardığı uğurlu və qətiyyətli mübarizə, Azərbaycan Ordusunun 44 günlük müharibə zamanı döyüş meydanında öz sözünü deməsi və xilaskarlıq missiyasını şərəflə yerinə yetirməsi ilə əlaqədar məsələlər öz əksini tapıb.

"Şərq-Qərb" mətbəəsində işıq üzü görən 536 səhifəlik nəşrdə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan həqiqətləri, müharibə reallıqları ilə bağlı dünyanın aparıcı televiziya kanallarına, informasiya agentliklərinə və qəzetlərinə verdiyi müsahibələr, Türkiyənin, eləcə də müxtəlif ölkələrin hökumət və dövlət başçıları ilə görüşləri zamanı çıxışları, Azərbaycan xalqına müraciətləri, xüsusilə də Şuşanın işğaldan azad olunması ilə əlaqədar Şəhidlər xiyabanından xalqımıza səslənişi öz əksini tapıb. Ən əsası, kitabda müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu öndər Heydər Əliyevin "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur!" fikirlərinin ardınca Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 günlük Vətən müharibəsi dövründə xalqa müraciətlərində yer alan, bu gün də fəxrlə ifadə etdiyimiz "Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!" sözlərinə yer verilib.

Yeri gəlmişkən, nəşrdə ilk olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışının yer alması müstəsna əhəmiyyətə malikdir. O mənada ki, Vətən müharibəsində əsas şüara çevrilən "Qarabağ Azərbaycandır və nida işarəsi" çağırışı məhz bu sessiyada Prezident İlham Əliyev tərəfindən qətiyyətlə və cəsarətlə bəyan edilmişdi.

Diqqət çəkən məqamlardan biri cənab İlham Əliyevin bəzi nüfuzlu nəşrlərin, informasiya agentliklərinin və televiziya kanallarının jurnalistlərinin bəzən qərəzdən, bəzən isə məlumatsızlıqdan irəli gələn qeyri-adekvat suallarını səbrlə, təmkinlə, diplomatik tərzdə cavablandırması, bu müsahibələri ilə həm işğalçı Ermənistana, həm də dünyaya tarix, hüquq və qürur dərsi keçməsi oldu. Məhz bu mühüm məqamlar da ətraflı şəkildə "Zəfər salnaməsi"ndə yer alıb.

Nəşr oxuculara, həmçinin dövlətimizin başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşünün mühüm məqamlarını çatdırıb. Həmin görüşdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq" sözləri 44 günlük Vətən müharibəsində Azərbaycanın unudulmaz tarixi zəfərini təmin edən amillərin həm daxili, həm də beynəlxalq auditoriyanın diqqətinə çatdırılması baxımından çox önəmli fikirlər kimi nəşrdə əks olunub.

Kitabda dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş torpaqlarımıza səfərlərinə də geniş yer ayrılıb.

"Zəfər salnaməsi" Bakının Azadlıq meydanında Vətən müharibəsində şanlı Qələbəyə həsr olunmuş Zəfər paradı ilə tamamlanıb. Bu hissədə dövlətimizin başçısının dərinməzmunlu nitqi və tarixi əhəmiyyətə malik fikirləri öz əksini tapıb.

Bunlarla yanaşı, ölkə Prezidentinin işğal altında olan torpaqlarımızın bir-birinin ardınca işğaldan azad edilməsi ilə bağlı "Twitter" səhifəsində paylaşdığı müjdəli xəbərlər də kitabın səhifələrini bəzəyir.

Bir sözlə, "Zəfər salnaməsi" Azərbaycanın tarixi ədalətin bərpası uğunda mübarizəsi ilə əlaqədar faktların öyrənilməsinə və möhtəşəm qələbəmizlə bağlı həqiqətlərin təbliğinə imkan verən çox əhəmiyyətli, zəruri informasiyalarla zəngindir. Nəşr, bütövlükdə, Azərbaycanın tarixi zəfərinin ayrı-ayrı məqamlarını özündə əks etdirən dəyərli, zəngin və mötəbər mənbədir.

# “İşğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən quruculuq işləri hər bir vətəndaş üçün qürurvericidir”

*Milli Məclisin İntizam Komissiyasının sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimovun yap.org.az-a müsahibəsi*

***-Eldar müəllim, hazırda işğaldan azad edilmiş ərazilərdə quruculuq-bərpa işləri həyata keçirilir. Artıq Laçın rayonunda Prezident İlham Əliyevin iştirakı ilə “Güləbird” SES-in açılışı oldu. Həmçinin, Horadiz-Ağbənd dəmir yolu xəttinin təməli qoyuldu. Bu barədə fikirlərinizi bilmək istərdik...***

-Əlbəttə, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən quruculuq işləri hər bir vətəndaş üçün qürurvericidir. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş rayonlara səfərləri həmişə böyük maraq və ruh yüksəkliyi ilə qarşılanır. Dövlətimizin başçısının hər səfəri böyük əhəmiyyət daşıyan əlamətdar hadisələrlə yadda qalır. Azərbaycan Prezidentinin fevralın 14-də işğaldan azad olunmuş ərazilərimizə səfərində də ilkin infrastruktur layihələrinin təməlqoyma mərasimlərinin keçirilməsinin və açılışının şahidi olduq. Dövlətimizin başçısı qeyd etdiyi kimi, biz tezliklə doğma Qarabağımızı cənnətə çevirəcəyik. İşğaldan azad edilmiş ərazilərdə görülən işlər, həyata keçirilən tədbirlər bunu deməyə əsas verir.

Ümumiyyətlə, Vətən müharibəsində dövlətimizin möhtəşəm qələbəsini şərtləndirən bir sıra mühüm amillər var. Ötən illər ərzində Azərbaycanın həyata keçirdiyi uğurlu siyasət ölkəmizin beynəlxalq müstəvidə imicini daha da gücləndirib. Bu gün Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır.

Son 17 il ərzində Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurla davam etdirilməsi, Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl şəkildə həyata keçirilən məqsədyönlü siyasət sayəsində Qarabağ münaqişəsinin ədalətli həlli üçün əlverişli hüquqi baza formalaşmış, vacib beynəlxalq sənədlər qəbul olunmuşdu. Təbii ki, bu məsələdə dövlətimizin başçısının bütün beynəlxalq platformalarda Ermənistanın işğalçılıq siyasətini, Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin tarixi faktlara və beynəlxalq hüquqa əsaslanan prinsipial mövqeyini dünya ictimaiyyətinin diqqətinə çatdırması mühüm rol oynayıb. Digər vacib bir məqam isə ölkəmizin iqtisadi sahədə əldə etdiyi uğurlar hesabına Silahlı Qüvvələrimizin hərbi qüdrətinin artırılması üçün ötən 17 ildə atılan davamlı addımlarla bağlıdır. Yəni, 17 il ərzində Azərbaycan münaqişənin həlli istiqamətində siyasi müstəvidə fəallıq göstərməklə yanaşı, həm də ölkəmizin iqtisadi, hərbi gücünün artırılması istiqamətində məqsədyönlü iş aparıb. Məhz düşünülmüş və uzaqgörən siyasət nəticəsində 1990-cı illərin əvvəlində AXC-Müsavat cütlüyündən bizə miras qalmış işğal faktı 44 günlük Vətən müharibəsi ilə aradan qalxdı.

Bu gün biz müşahidə edirik ki, o vaxtlar AXC-Müsavat cütlüyünün hakimiyyətində təmsil olunmuş, hazırda radikal müxalifət mövqeyində dayanan bəzi adamlar işğalçı Ermənistan üzərində qazanılmış qələbəmizin miqyasını kiçiltməyə çalışırlar. Amma onların cəhdlərinin heç bir mənası yoxdur. Çünki xalq kimin kim olduğunu yaxşı bilir. Onların miras qoyduğu problemi Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu həll etdi.



***- Təməli qoyulan Horadiz-Ağbənd dəmir yolu xəttinin əhəmiyyətini necə qiymətləndirirsiniz?***

-Prezident İlham Əliyevin təməlini qoyduğu, uzunluğu 100 kilometr olan Horadiz-Ağbənd dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Bu nəqliyyat infrastrukturu vətəndaşlarımızın azad olunmuş torpaqlara gediş-gəlişini asanlaşdıracaq, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsini yaradacaq.

Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Naxçıvana quru dəhlizin açılması mühüm tarixi nailiyyətdir. Məhz Azərbaycan Prezidentinin təkidi ilə əvvəllər nəzərdə tutulmayan Azərbaycanın qərb rayonları və Naxçıvan MR arasında nəqliyyat əlaqəsi yaradılacaq. Bununla da Naxçıvan həm blokadadan çıxarılır, eyni zamanda, yeni nəqliyyat damarı yaradılır. Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvanla, həmçinin Türkiyə ilə birləşir. Belə bir yeni nəqliyyat dəhlizinin yaradılması regionda mühüm hadisədir və region ölkələrinin əməkdaşlığını daha da gücləndirəcək.

***-Bugünlərdə Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında VII iclası keçirildi. Ümumiyyətlə, ölkəmizin həyata keçirdiyi enerji siyasətinin əhəmiyyəti haqqında nə deyə bilərsiniz?***

-Son illərdə Azərbaycanın liderliyi ilə reallaşdırılan layihələr sayəsində regionun və Avropanın enerji xəritəsi əhəmiyyətli dərəcədə yenilənib. Ölkəmiz özünün zəngin neft və qaz resurslarının istehlakçılara şaxələndirilmiş marşrutlarla çatdırılmasına güclü siyasi iradə göstərir. Bu, həm təchizatçı ölkə kimi Azərbaycanın, həm də istehlakçı dövlətlərin maraqlarına uyğundur. Bu baxımdan, Azərbaycanın zəngin “Şahdəniz” yatağının ehtiyatlarının işlənməsinə və Avropa ölkələrinə çatdırılmasına hesablanan Cənub Qaz Dəhlizi müstəsna əhəmiyyət daşıyır.

Yeni dəhliz zaman-zaman enerji amilinin siyasi təzyiq vasitəsinə çevrilməsindən əziyyət çəkən Avropa ölkələri üçün nəql marşrutlarının şaxələndirilməsi deməkdir. Elə bu və digər səbəblərə görə də Cənub Qaz Dəhlizinə maraq kifayət qədər böyükdür. Bunu fevralın 11-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında keçirilən VII iclası bir daha təsdiqlədi. Budəfəki tədbirə əvvəlki iclaslarla müqayisədə daha çox sayda iştirakçının qatılması məmnunluq doğurur. Qeyd edim ki, qlobal pandemiya səbəbindən onlayn formatda baş tutan tədbirə 18 ölkənin, 19 şirkətin və 5 aparıcı beynəlxalq maliyyə təsisatının təmsilçiləri qatılıb. İclasda çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirib ki, Azərbaycan qazı Avropa üçün yeni, etibarlı və uzunmüddətli mənbədir.

Azərbaycanın zəngin enerji resursları həm ölkəmizin iqtisadi potensialını gücləndirir, həm də regional əməkdaşlıqda çox mühüm rol oynayır. Tikilib istifadəyə verilmiş kəmərlər vasitəsilə Azərbaycan qazı dünya və Avropa bazarlarına nəql olunur, respublikamız qlobal miqyasda qaz ixrac edən ölkəyə çevrilir. Bununla da Azərbaycan regionun, eləcə də Avropanın enerji təhlükəsizliyinin formalaşmasına töhfə verən ölkələrdən birinə çevrilir. Azərbaycan bu gün öz enerji məsələlərini uğurla həll edir. Cənub Qaz Dəhlizi, eləcə də Azərbaycanın dəstəyi ilə reallaşan digər enerji layihələri regionun təhlükəsizliyinə, iqtisadi inkişafına dəstək olmaqla yanaşı, Azərbaycanın özünün iqtisadi inkişafının artırılması baxımından çox əhəmiyyətlidir.

Azərbaycan Cənub Qaz Dəhlizi layihəsinin formalaşdırıldığı bütün seqmentlərdə əsas paycılardan biridir, eyni zamanda, bu layihənin əsas təməlini meydana gətirən TANAP layihəsində ən çox paya sahib olan ölkədir. Bu da ona əsas verir ki, Azərbaycan hasil etdiyi təbii qazını özünün boru kəmərləri vasitəsilə daşıyaraq bu istiqamətdə əlavə dəyərini artıracaq, iqtisadi dividentlər əldə edəcək. Bununla da, Azərbaycan qazı Avropa üçün yeni, etibarlı və uzunmüddətli mənbə olacaq. Gələcəkdə Türkmənistan və Qazaxıstan kimi ölkələrin təbii qazının nəqlinin həyata keçirilməsi, digər tərəfdən, Şərqi Aralıq dənizindən çıxarılacaq təbii qazın, əsasən də İsrailin təbii qazının gələcəkdə bu boru kəməri ilə daşına bilməsi Azərbaycanın dövlət büdcəsi gəlirlərinin daha da artması, ölkəyə valyutanın davamlı şəkildə daxil olması baxımından olduqca vacibdir.

***- Eldar müəllim, Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncama əsasən, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”i təsdiq edilib. Milli Prioritetlərin hazırlanmasını zəruri edən əsas amillər nədən ibarətdir?***

-Son 17 il ərzində ölkəmizdə regionların inkişafına, yoxsulluğun azaldılmasına, ərzaq təhlükəsizliyinin təmin edilməsinə, habelə iqtisadiyyatın güclənməsinə və sosial həyatımızın yaxşılaşmasına dair bir çox iri həcmli və əhatəli dövlət proqramları qəbul edilib və uğurla icra olunub. Onlardan bəzilərinin icrası hazırda da davam etdirilir. Həyata keçirilən bu və ya digər tədbirlər sayəsində ölkəmizdə uğurlu sosial-iqtisadi nailiyyətlər əldə edilib və Azərbaycanda qüdrətli dövlət və yüksək rifah cəmiyyəti qurulmasına etibarlı zəmin yaradılıb.

Hazırda qarşıda duran əsas vəzifə ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsini bundan sonra da möhkəmləndirmək, biznesə dost dövlət idarəetməsini genişləndirmək, xarici bazarlara yerli məhsulların çıxışını artırmaq və iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin etmək, işğaldan azad olunmuş ərazilərdə mövcud təbii sərvətlərdən səmərəli istifadə etməkdir.

Bu məqsədlərin reallaşdırılması üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il 2 fevral tarixli Sərəncam imzalayıb. Sərəncamda növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritetin reallaşdırılması nəzərdə tutulur. Bunlar: dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat; dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; işğaldan azad olunmuş ərazilərə böyük qayıdış; təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi. Qeyd etmək lazımdır ki, Milli prioritetlər bir-biri ilə sıx əlaqədə olmaqla, bir-birini tamamlayırlar. Sərəncamda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılır ki, bu Sərəncamda təsdiq olunan Milli Prioritetlərə uyğun olaraq “2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın layihəsini doqquz ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin. Sərəncamda 2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın layihəsi hazırlanarkən qabaqcıl beynəlxalq təşkilatlar və ixtisaslaşmış məsləhətçi şirkətlərlə səmərəli əməkdaşlığın həyata keçirilməsi ilə yanaşı, ölkəmizin aidiyyatı dövlət orqanlarının (qurumlarının), elmi təşkilatların, mütəxəssislərin və vətəndaş cəmiyyəti təsisatlarının da cəlb olunması təmin edilməlidir. Bu isə o deməkdir ki, qeyd olunan strategiyanın hazırlanmasında, beynəlxalq təşkilatlar və məsləhətçilərlə yanaşı, ölkəmizdə fəaliyyət göstərən istənilən təşkilat, mütəxəssislər və bütövlükdə vətəndaş cəmiyyəti iştirak etmək imkanı qazanır. Ona görə də hər birimiz bu strategiyanın hazırlanmasında fəal iştirak etməklə, onun daha ədalətli və gələcək çağırışlara cavab verəcək bir proqram olmasına öz töhfəmizi verməliyik. Çünki bu strategiya respublikamızda qüdrətli dövlət və yüksək rifah cəmiyyətinin formalaşmasına yönəlməklə, mövcud və gələcək nəsillərin mənafeyinə tam uyğundur.

## ABŞ-ın daha bir ştatında Xocalı soyqırımı ilə bağlı bəyanat qəbul edilib

ABŞ-ın Men ştatının Portlənd şəhərinin meri Ketlin M.Snayder 2021-ci il fevralın 26-nın Xocalı qətliamı qurbanlarının anım günü kimi qeyd olunmasına dair bəyanat imzalayıb. Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bəyanatın imzalanması Men Azərbaycan Cəmiyyətinin rəhbəri Tərlan Əhmədovun təşəbbüsü ilə baş tutub.


KATE M SNYDER (MAYOR)
BELINDA S. RAY (1)
SPENCER R. THIBODEAU (2)
TAE CHONG (3)
ANDREW ZARRO (4)

CITY OF PORTLAND
IN THE CITY COUNCIL

MARK DION (5)
APRIL FOURNIER (A/L)
PIOUS ALI (A/L)
NICHOLAS M. MAVODONES, JR (A/L)

PROCLAMATION
Khojala Remembrance Day

**WHEREAS,** on February 26, the Azerbaijani-Americans, the people of Azerbaijan, as well the friends of Azerbaijan around the world, will mark the 29th anniversary of one of the most horrific events of the 1990s, the Khojaly Massacre; and

**WHEREAS,** on February 25 and 26, 1992, Armenian armed forces with the support of the Soviet-Russian 366th motorized rifle regiment, attacked and occupied the besieged Azerbaijani town of Khojaly in the Nagorno-Karabakh region of Azerbaijan, and killing 613 civilians, including 106 women, 83 children and 70 elderly. Eight families were annihilated completely; 25 children lost both parents, 130 children lost one of the parents; 487 people were wounded, including 76 children; and 1275 civilians captured hostage; and

**WHEREAS,** many civilian bodies found in Khojaly after the battle were disfigured and mutilated, making this one of the most inhumane and barbaric battles of the war, amounting to the notion of war crime and crime against humanity by definition of the 1949 Geneva Convention; and

**WHEREAS,** documenting this mass killing the Human Rights Watch called it the “largest massacre in the conflict”; major United States and international news organizations reported about the killings with horror; and numerous governments around the world, as well as the State Legislatures and Governors of 20 U.S. States, passed resolutions/proclamations condemning the attack; and

**WHEREAS,** the perpetrators of this genocide are still at large and have not been brought to justice yet, and

**WHEREAS,** the tension between Armenia and Azerbaijan are still running high despite the end of the war; and

**WHEREAS,** the tragic event in Khojaly is a sobering reminder of the terrible damage that can be inflicted in wartime and it exemplifies the enduring need for greater understanding, communication, and tolerance among people worldwide.

**NOW, THEREFORE, BE IT RESOLVED, THAT** I, Kate Snyder, Mayor of the City of Portland, Maine, do hereby proclaim that the victims of Khojaly tragedy be honored, and February 26, 2021, be recognized as the 29th Anniversary of the Khojaly tragedy, which resulted in the deaths of more than six hundred innocent civilians in the town of Khohaly in Azerbaijan on February 26th, 1992, and call upon all residents of this great city to

**Signed and sealed this 17th day February of 2021.**

Kate Snyder

**Kathleen M. Snyder, Mayor**
**City of Portland, Maine**

Bəyanatda Xocalı soyqırımının 29-cu ili haqqında yazılıb, qətlə yetirilən azərbaycanlıların sayı qeyd olunub və faciənin insanlıq əleyhinə törədilmiş ən böyük qətliamlardan biri olduğu bildirilib. Diqqətə çatdırılıb ki, Xocalı qətliamı dünyada insanlıq əleyhinə yönəlmiş cinayətlərdən biridir. ABŞ-ın Men ştatında belə bir bəyanatın qəbul edilməsi Amerika azərbaycanlılarının Xocalı soyqırımının ildönümü ərəfəsində ən böyük uğuru kimi qiymətləndirilə bilər.

## Kestutis Yankauskas: Avropa İttifaqı inanır ki, bu regionda münaqişələr yox, sülh və əməkdaşlıq görəcək

Bu gün dünyada bir çox insan Avropa İttifaqını iqtisadi təşkilat kimi görür. Lakin İkinci Dünya müharibəsindən sonra Avropa İttifaqı dünyada sülh təşəbbüslərinə start verdi. Avropa İttifaqı uzunmüddətli sülhün və əməkdaşlığın təmin olunması üçün səylər göstərib. Biz bu təcrübəni paylaşmağa hazırıq və fikirləşirik ki, Azərbaycan Avropa İttifaqının bu təcrübəsindən faydalana bilər. Bu sözləri Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas AZƏRTAC-ın müxbirinin sualına cavabında bildirib.

“Biz inanırıq ki, bu regionda münaqişələr yox, sülh və əməkdaşlıq görəcəyik. İstəyirik ki, region ölkələri arasında qarşılıqlı fəal diplomatik əlaqələr qurulsun, sərhədlər açılsın, nəqliyyat sahəsində əməkdaşlıq edilsin, buradakı icmalar da sülh şəraitində yaşasınlar, - dəyə nümayəndəliyin rəhbəri vurğulayıb.

O qeyd edib ki, ötən illər ərzində Avropa İttifaqı Azərbaycanda bir sıra sahələrdə əməkdaşlıq layihələri icra edib. Əlavə edib ki, bundan sonra da müxtəlif sahələrdə əməkdaşlığa ehtiyac var: “Hesab edirəm ki, regionda bərpa və sülh quruculuğu ilə bağlı çox gözəl təşəbbüs artıq formalaşıb”.

## Dmitri Savelyev: Prezident İlham Əliyevin Qarabağ siyasəti tam bəhrəsini verdi



**Prezident İlham Əliyev və Nikol Paşinyanın iştirakı ilə Münxendə keçirilən debat əlamətdar hadisə idi. Çünki bu debat zamanı iki lider və ölkələr arasındakı uçurum bütün dünya siyasi elitası üçün aydın oldu.**

Bu barədə Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev AZƏRTAC-ın müxbirinə verdiyi müsahibəsində bildirib.

"Azərbaycan və Ermənistan liderlərinin Münxen müzakirəsindən danışmazdan əvvəl bu hadisənin tarixçəsini xatırlatmaq istərdim. Qarabağ münaqişəsinin yenidən eskalasiyasının başlanğıcı Nikol Paşinyanın "Artsax Ermənistandır və nöqtə" bəyanatı oldu. Ermənistan baş nazirinin sözləri Rusiya xarici işlər naziri Sergey Lavrov tərəfindən tənqid olundu, Prezident İlham Əliyev isə "Valday" Beynəlxalq Diskussiya Klubunun tribunasından birmənalı şəkildə bildirdi: "Qarabağ Azərbaycandır və nida işarəsi", bununla da o, erməni siyasətçilərinə ölkəsinin işğal olunmuş əraziləri azad etmək əzmində olduğunu çatdırdı", - deyə rusiyalı deputat söyləyib.

D. Savelyev Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan arasında Münxendə keçirilən debatdan danışaraq deyib: "Tarix və beynəlxalq hüquqdan xəbəri olmayan Ermənistan baş naziri emosional təsirə ümid edərək artıq tükənmiş arqumentləri təkrarlayırdısa, İlham Heydər oğlu Əliyev beynəlxalq səviyyəli parlaq diplomat və siyasətçi olaraq çıxışını tarixi sənədlərə və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanaraq qururdu. İlham Heydər oğlu Əliyevin çox dəqiq ifadələrindən aforizm kimi sitat gətirmək olar", - deyə o vurğulayıb.

Deputat bildirib ki, Azərbaycan Prezidentinin Münxendə qarşı tərəfə verdiyi əsas mesaj olduqca aydın idi: "Danışıqlar Ermənistan tərəfinin hərəkətləri səbəbindən pozularsa, dərhal cavab tədbirləri görüləcək". Lakin təəssüf ki, Ermənistan siyasətçiləri bu mesajı eşitmək və vaxtında nəzərə almaq istəmədilər.

D.Savelyev Dağlıq Qarabağ münaqişəsi prosesində Azərbaycan və Ermənistanın mövqeyini müqayisə edərək deyib: "Nikol Paşinyan səylərini problemin həllinə deyil, status-kvonun qorunub saxlanmasına yönəldərək ondan əvvəl aparılan siyasəti davam edirdi. Ermənistan tərəfi danışıqlarda qondarma "Dağlıq Qarabağ respublikası" nümayəndələrinin iştirakı ilə oyun qaydalarını yenidən yazmağa məntiqsiz cəhdlər edib. Rusiya və ATƏT-in Minsk qrupunun digər həmsədrləri o vaxt təsdiq etdilər ki, formatı dəyişmək niyyətində deyillər".

Deputatın fikrincə, bunun əksinə olaraq Azərbaycan Qarabağ münaqişəsinin həllində dəyişməz, prinsipial mövqe tutdu və onu ən yüksək kürsülərdən bəyan etdi. "Prezident İlham Əliyev həmişə bəyan edib ki, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması işğal altında olan ərazilərin azad edilməsindən sonra mümkündür. İşğala son qoyulduqdan sonra Dağlıq Qarabağ erməniləri azərbaycanlılar kimi bərabər hüquqlara malik olacaqlar, çünki Azərbaycan çoxmillətli ölkədir. Bu gün biz həmin tezislərin reallığa həyata keçirildiyini görürük.

Prezident İlham Əliyev Azərbaycanın ədalətli mövqeyini beynəlxalq tribunalarda və KİV-lərə müsahibələrində müdafiə etməklə yanaşı, Azərbaycanın gücləndirdi, onun iqtisadiyyatını inkişaf etdirdi və siyasi mövqelərini möhkəmləndirdi. Bütün dünya bunun şahidi oldu. Həmçinin bu gün Azərbaycan ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer alır. Bütün bunların nəticəsi olaraq Azərbaycan torpaqları otuz illik işğaldan azad olundu və dinc həyata qovuşdu. Bu, bütün azərbaycanlılar üçün qürur mənbəyidir. İlham Əliyevin Qarabağ siyasəti tam bəhrəsini verdi, Azərbaycan Prezidentinin adı isə əbədi olaraq ölkə tarixinə düşəcək", - deyə Dmitri Savelyev yekunlaşdırıb.

## Aşıq Ələsgərin 200 illiyi keçiriləcək



**Prezident İlham Əliyev fevralın 18-də Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, qüdrətli söz ustadı Aşıq Ələsgərin 200 illiyinin keçirilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsi Aşıqlar Birliyinin təklifləri nəzərə alınmaqla, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Təhsil Nazirliyinə tapşırılıb.**

Sərəncamda qeyd olunur ki, Aşıq Ələsgər çoxəsrlik keçmişə malik aşıq sənəti ənənələrinə ən yüksək bədii-estetik meyarlarla yeni məzmun qazandırmış, xalq ruhu və həmahəng əsərləri ilə Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş etmişdir. Sənətkarın doğma təbiətə məhəbbət və vətənpərvərlik hisslərini vəhdətdə aşılayan, ana dilimizin saflığını, məna potensialını və hüdudsuz ifadə imkanlarını özündə cəmləşdirən dərin koloritli yaradıcılığı Azərbaycan ədəbiyyatının parlaq səhifələrindəndir. Aşıq Ələsgər çox sayda yetirmələrindən ibarət bir məktəb formalaşdırmış və gələcəyin məşhur el şairlərinə qüvvətli təsir göstərmişdir. Azərbaycan aşıq sənətinin ümumbəşəri dəyərlər sırasında qorunan dünya qeyri-maddi mədəni irs nümunələri siyahısına salınması həm də Aşıq Ələsgər sənətinə ehtiramın təzahürüdür.

Aşıq Ələsgərin zəngin poetik irsinin geniş tədqiqi, nəşri və təbliğinin mühüm mərhələsi mədəni-mənəvi dəyərlərimizin bütün daşıyıcılarına həmişə qədirbilənliklə yanaşan ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Sənətkarın yubileyləri məhz ulu öndərin təşəbbüsü ilə dövlət səviyyəsində qeyd edilmişdir. Böyük söz ustadının respublikamızda və onun hüdudlarından kənarda 150 illik yubiley mərasimləri keçirilərkən əlamətdar hadisə baş vermiş, azərbaycanlıların əzəli yurdlarından olan qədim Göyçə mahalında, doğulduğu kənddə Aşıq Ələsgərin qəbirüstü abidəsi ucaldılmışdı. Həmin əzəmətli büst soydaşlarımız öz dədə-baba torpaqlarından didərgin salındıqdan sonra erməni vandalları tərəfindən dağıdılsa da, milli-mədəni varlığımızın tərkib hissəsinə çevrilmiş Aşıq Ələsgər irsi silinməz tarixi yaddaş rəmzi kimi yaşamaqdadır.

## İsa Həbibbəyli: "Naxçıvan nəqliyyat dəhlizinin gələcəkdə istifadəyə verilməsi..."



"Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə uzun illərdən bəri çətin blokada şəraitində yaşamaqda davam edən Naxçıvan Muxtar Respublikasının dəmir yolu nəqliyyatının bərpa edilməsinə dair razılaşdırmanın əldə olunması, bu regionu Azərbaycanın digər rayonları ilə əlaqələndirən yeni avtomobil yolunun çəkilməsinin planlaşdırılması qədim diyarın müasir inkişafında xüsusi əhəmiyyətə malik olacaq". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli deyib.

İsa Həbibbəyli bildirib ki, Bakı-Tbilisi-Qars dəmir yolunun Qars-İqdır-Sədərək-Şərur magistralı vasitəsilə Naxçıvana birləşdirilməsi muxtar respublikanın hərtərəfli inkişafına yeni nəfəs gətirəcək mühüm hadisədir. Onun fikrincə, yaradılması çox da uzaqda olmayan Naxçıvan nəqliyyat dəhlizi ilə Naxçıvan Muxtar Respublikası müasir dövrün əsas tranzit mərkəzlərindən birinə çevrilə bilər. Naxçıvan nəqliyyat dəhlizinin Türkiyə vasitəsilə Avropaya, İran yolu ilə Asiyaya, Bakıdan keçməklə Rusiyaya doğru genişləndirilməsi regionun daha böyük inkişafına start vermək deməkdir. "Bütün bunlar Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının bugünkü müasir intibah mərhələsinin yeni üfüqlərə doğru daha da inkişaf etdirilməsinə tam təminat verir",-deyə akademik vurğulayıb.

## DSX əməkdaşlarının vaksinasiyası başlanıb



**Dövlət Sərhəd Xidmətinin (DSX) əməkdaşlarının koronavirusa qarşı peyvəndlənməsinə başlanıb. SİA-nın məlumatına görə, xidmət əməkdaşlarının vaksinasiyası DSX-nin hospitalında həyata keçirilir. "Ölkə başçısı və Birinci vitse-prezident tərəfindən verilən göstərişə əsasən, koronavirusa qarşı 5000 nəfər üçün doza əldə etmişik". Bunu Dövlət Sərhəd Xidmətinin (DSX) Tibb Xidmətinin rəisi, polkovnik Kənan Yusif-zadə deyib.**

"Bu, bizim hazırkı mərhələdə olan ehtiyacımızı qarşılayır", - o bildirib. Dövlət Sərhəd Xidmətinin (DSX) Tibb Xidmətinin rəisi deyib ki, indiyədək Dövlət Sərhəd Xidmətinin 23 nəfər hərbi qulluqçusu və mülki işçisi vaksinasiya olunub: "Bu gündən etibarən DSX-nin Bakı Qarnizonu, daha sonra isə hərbi hissələr üzrə kütləvi şəkildə vaksinasiya davam edəcək. Bütün məlumatlar toplandıqdan sonra təhlil olunacaq və Nazirlər Kabineti yanında Operativ Qərargaha təqdim ediləcək". K.Yusif-zadə vurğulayıb ki, sərhədçilər arasında da koronavirusa yoluxan var: "Hazırda 6 nəfər COVID-19 virusunun daşıyıcısıdır".

Qeyd edək ki, Azərbaycanda yanvarın 18-dən etibarən vaksinasiya prosesinə start verilib. Yanvar ayının 18-dən etibarən Azərbaycanda vaksinasiya prosesinə start verilib. İlkin mərhələdə sosial cəhətdən yüksək risk qrupuna daxil olan səhiyyə işçiləri - həkim, orta və kiçik tibb heyəti, texniki heyət peyvənd olunub. Növbəti mərhələdə tibbi cəhətdən yüksək risk qrupuna daxil olan 65 yaşdan yuxarı şəxslərin vaksinasiyası həyata keçirilir. Dünəndən isə yaşı 50-dən yuxarı olan şəxslərə peyvəndin vurulmasına başlanılıb.

## "Azərbaycanla Türkiyə arasında saziş martın 1-dən qüvvəyə minəcək"



**"Azərbaycanın zəfəri bölgəmizin ticarət və logistik quruluşunu dəyişəcək yeni dönəmin başlanğıcı oldu". Bunu Türkiyənin ticarət naziri Ruhsar Pekcan Ankarada Türkiyə-Azərbaycan İş Forumunda çıxışı zamanı deyib.**

Türkiyəli nazir bildirib ki, bu yeni dönəmdə də Azərbaycanın yanında, onunla işbirliyi içərisində olacaqlar: ""Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi" 1 martdan etibarən qüvvəyə minəcək. razılaşmanın əhatə dairəsinin genişləndirilməsi üçün işlərə başladıq". Qeyd edək ki, "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi" 2020-ci il fevralın 25-də imzalanıb, həmin il mayın 31-də Milli Məclis Sazişi təsdiqləyib.

Sənədə əsasən, Azərbaycan və Türkiyə arasında Birgə Komitə təsis ediləcək. Birgə komitə bu sazişin tətbiq edilməsindən əldə olunan irəliləyişin nəzərdən keçirilməsi üçün ildə ən azı bir dəfə görüşəcək. Həmçinin, birgə komitə zəruri hesab etdiyi təqdirdə hər hansı alt komitələr və işçi qrupları yarada bilər.

Sazişdə 15 mal qrupu üzrə hər iki ölkə arasında həm kvota, həm də rüsumun sıfıra endirilməsi ilə bağlı mühüm müddəalar əksini tapıb. Saziş razılığa gələn hər bir tərəfin həmin Sazişin qüvvəyə minməsi üçün milli qanunvericiliyində tələb olunan bütün prosedurların başa çatdırıldığını təsdiq edən sonuncu diplomatik bildirişin alınmasından sonrakı ayın ilk günü qüvvəyə minməlidir.

Saziş müddətsiz bağlanıb, razılığa gələn tərəfin diplomatik kanallar vasitəsilə onun ləğv etmək barədə niyyətini bildirənədək etibarlıdır. Bu halda Saziş digər razılığa gələn tərəfin ləğvetmə bildirişini aldığı tarixdən sonrakı yeddi ayın ilk günü qüvvəsini itirəcək.

# Müasir dövrün yeni tələbləri

**Mövcud reallıq və faktlar ondan ibarətdir ki, dağıdıcı müxalifət qərəzli dairələrin ölkəmizə qarşı istifadə olunan alətinə çevrilib. Bu, əlbəttə ki, nəzəri fikir deyil, təcrübədə öz təsdiqini tapmış reallıqdır. Lakin hər dəfə olduğu kimi, bir daha intellekt və milli prinsipsizlik problemi yaşayan dağıdıcı müxalifət siyasi-ictimai reallığı dərk edə bilməməsi nəticəsində fəaliyyətində ciddi problemlər qalmaqdadır. Məhz bu kimi problemlərin nəticəsidir ki, vaxtaşırı olaraq müxalifət partiyalarından qopmalar baş verməkdədir.**



Artıq Azərbaycanda bu və ya digər qüvvələrin maddi-siyasi dəstəyilə dövlətin əsaslarının laxladılması qeyri-mümkündür. Çünki Azərbaycanda möhkəm əsaslara malik ictimai siyasi sabitlik mövcuddur. Yəni birmənalı şəkildə demək olar ki, ölkəmizdə bünövrəsi tam möhkəm olan dövlətçilik institutu formalaşıb. Bu baxımdan AXCP, Müsavat kimi partiya sədrlərinin və onlarla eyni maraqları bölüşən xaricdəki söyüş qurupunun sifarişlər əsasında milli və dövlətçilik maraqlarımıza qarşı yönələn pozucu fəaliyyətləri heç bir nəticə vermir. Əksinə görünən odur ki, xalq hər dəfə dövlətçiliyə və milli maraqlara zidd addımlar atan dağıdıcı müxalif ünsürlərini daha sərt şəkildə ittiham edir, onların qərəzli fəaliyyətlərini qınayırlar. Bununla belə, reallıq ondan ibarətdir ki, dağıdıcı imici ilə tanınan müxalifət Azərbaycan siyasi səhnəsinin qruplarıdırlar. Ölkəmiz demokratik dünyanın ayrılmaz hissəsidir və müxalifət yaradılan bu şəraitdən sui-istifadə etsə də, susmaq, bəzən də hay-küylərinə göz yummaq vacib elementlərdəndir. Yəni onların əməllərinə qiyməti zamanın və xalqın öhdəsinə buraxılır. Xalq dəfələrlə müxalifətə öz sözünü və dəyərini verib. O mənada ki, zamanın müxtəlif məqamlarında keçirdikləri etiraz aksiyalarına xalq dəstək verməyib, rədd edib. Eyni zamanda bələdiyyə, parlament və prezident seçkilərində xalq müxalifəti ciddi şəkildə cəzalandırıb. Bununla da bir daha nümayiş etdirilib ki, xalqdan ayrı düşənlərə xalq dəstək verə bilməz.

### Cənubi Qafqazın ən aparıcı siyasi partiyası - Yeni Azərbaycan Partiyası

Xalq onun maraq və mənafeyini düşünən, dövlətçiliyin dahada möhkəmlənməsində xeyirli siyasət ortaya qoyan partiyaların yanındadır, siyasətçiləri dəstəkləyir. Necə ki, xalq Cənubi Qafqazın ən aparıcı siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının ideoloji-siyasi xəttini birmənalı şəkildə dəstəkləyir. Çünki 1992-ci ilin noyabr ayının 21-də Ulu Öndərimiz Heydər Əliyevin ideyamüəllifliyi ilə yaranan YAP hər zaman sivil, demokratik siyasi mübarizə yolu tutmaqla, fəaliyyətini ancaq xalqın və dövlətçiliyin maraqlarının təmin olunması üzərində qurub. Hətta müxalifət partiyası olduğu dönəmdə belə, Azərbaycan dövlətçiliyinə qarşı çıxış etməyib, əksinə Dahi Öndərimiz Heydər Əliyevin tövsiyyələri və məsləhətləri əsasında AXC- Müsavat iqtidarının ölkədə yaratdığı ağır, üzücü problemlərin həlli ilə bağlı çıxış yolu göstərilib. İqtisadi, siyasi tənəzzüldən çıxmaq üçün Yeni Azərbaycan Partiyası tərəfindən layihələr irəli sürülüb. Bununla bağlı Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev YAP-ın V qurultayında çıxışı zamanı demişdir: "1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının yaradılması xalqda böyük ümidlər yaratdı ki, nəhayət, xoşagəlməz hallara son qoyulacaq, nəhayət, Azərbaycanda çox ciddi siyasi qüvvə yaranır, nəhayət, Azərbaycanda siyasi sistem yaranır. Çünki Yeni Azərbaycan Partiyasının yaradılması, eyni zamanda, müasir siyasi sistemin yaranması deməkdir. Çünki o vaxta qədər ölkədə fəaliyyət göstərən müxtəlif siyasi qruplaşmalar siyasi mübarizəni faktiki olaraq çox primitiv səviyyədə aparmağa cəhd etmişlər. Siyasi sistem yox idi. Yeni Azərbaycan Partiyasının yaradılması siyasi sistemin yaradılması deməkdir. Yeni Azərbaycan Partiyasının müxalifət partiyası kimi yaradılması, eyni zamanda, müxalifət necə fəaliyyət göstərməlidir, onu da çox açıq-aydın ortaya qoymuşdur. Yeni Azərbaycan Partiyası o vaxtkı antimilli xəyanətkar iqtidara müxalifətdə idi. Yeni Azərbaycan Partiyasının əsas amalı dövlətçilik, müstəqillik, inkişaf, təhlükəsizlik idi. Partiyamız iqtidara gələndən sonra bu ideyalar, bu amillər Azərbaycanda reallığa çevrilmişdir".

### Bəzi müxalifət partiyaları fəaliyyətlərini dayandıracaq

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xalqın çağırışı ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı YAP-ın inkişafı tarixində yeni bir mərhələnin əsasını qoydu. Ümumxalq partiyaya çevrilən YAP dövlət quruculuğunda və xalqın sosial-rifah halının yaxşılaşdırılması istiqamətində əhəmiyyətli işlər gördü. Ötən müddət ərzində YAP-ın yaxından iştirakı ilə həyata keçirilən bütün tədbirlər, işlər, atılan addımlar Azərbaycanın milli maraqlarına xidmət edib. Bu baxımdan YAP-ın cəmiyyətdə rolu və nüfuzu durmadan artır. Bütün bu amillər, şübhəsiz ki, partiya sıralarına insan axınını da sürətləndirir.

Bir sözlə, Yeni Azərbaycan Partiyası inkişafı fonunda müxalifət xalq arasında mövqelərini tamamilə itirməkdədir. Həm də nəzərə almaq lazımdır ki, Azərbaycan müxalifəti sivil müxalifət institutu kimi fəaliyyət göstərmək prinsiplərindən uzaqdır. Onların siyasi mübarizə hədəfləri yuxarıda qeyd etdiyim kimi, Azərbaycanın imicinə zərər vurmaq və uğurlarına kölgə salmaqdan ibarətdir. Bu isə, nəticə olaraq onu deməyə əsas verir ki, müxalifət uzun müddət siyasi arenada qala bimәyəcək. Ən azı növbəti mərhələdə bəzi müxalifət partiyaları fəaliyyətlərini dayandıracaq və ya hansısa partiyaya birləşəcəklər.

**İ.ƏLİYEV**

## Ərdoğan Putinlə telefonda nədən danışıb?



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı baş tutub. SİA bu barədə Türkiyə mətbuatına istinadən məlumat verir. Qeyd olunub ki, prezidentlər Türkiyə-Rusiya münasibətlərinin müxtəlif aspektlərini müzakirə ediblər. R.T.Ərdoğan 11 yanvar razılaşmalarına əsasən, nəzərdə tutulan nəqliyyat yollarının yaradılması üçün rusiyalı və türkiyəli mütəxəssislərin azərbaycanlı həmkarları ilə görüşə biləcəyini bildirib. Bundan başqa, Türkiyə prezidenti Ağdamda fəaliyyət göstərən Birgə Monitorinq Mərkəzinin öz vəzifəsini uğurla icra etdiyini vurğulayıb. R.T.Ərdoğan atəşkəsin qorunması üçün birgə səylərin davam etdirilməsinin zəruri olduğunu deyib.

## Vüqar Rəhimzadə: Qarabağa Böyük Qayıdışa hazırlaşdığımız indiki zamanda Minsk qrupunun missiyasına ehtiyac qalmayıb



"Otuz ilə yaxın idi ki, dünyanın aparıcı dövlətlərindən, nüfuzlu beynəlxalq təşkilatlarından, xüsusilə münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirmək məqsədilə 1992-ci ildə yaradılan, amma fəaliyyətsizliyi ilə tarixə düşən ATƏT-in Minsk qrupu həmsədrlərindən ədalətli mövqe gözləyən Dağlıq Qarabağ münaqişəsi dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, rəşadətli ordumuzun şücaəti sayəsində öz həllini tapdı. Ölkəmizi daim düşündürən "ATƏT-in Minsk qrupu nə üçün 30 ilə yaxın müddətdə işğalçıya "dur" demək istəmədi" sualını 44 günlük İkinci Qarabağ müharibəsi ətraflı cavablandırsa da, qurumun son bəyanatı bir daha ötən illərə nəzər salmağı bir zərurətə çevirir. Daim beynəlxalq səviyyədə də bu mühüm məqam etiraf edilirdi ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bölgədə sülhün, təhlükəsizliyin, iqtisadi tərəqqinin əldə olunmasına böyük maneədir. Münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirməli olan ATƏT-in Minsk qrupu məsələnin nizamlanması istiqamətində səylərini artırmalı, BMT Təhlükəsizlik Şurasının qərar və qətnamələrinin icrasına nail olmalıdır. Bu gün də sual olunur: 44 gündə Azərbaycan Ordusu bu qərar və qətnamələri icra etdi, bəs nə üçün ATƏT-in Minsk qrupu yaradılan möhkəm hüquqi baza əsasında onları 30 ildə icra edə bilmədi? ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri, eyni zamanda, BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Ən əsası onlar həmin qətnamələrin hazırlanması ilə yanaşı, qəbuluna imza atan dövlətlərdir."

Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, hadisələrin təhlili göstərdi ki, Minsk qrupunun əsas missiyası ötən bu müddətdə eyni bəyanatları təkrarlamaqdan, məsuliyyəti münaqişə tərəflərin üzərinə atmaqdan, regiona turist gəzintisinə bənzəyən nəticəsiz səfərlər etməkdən, işğalçı ölkənin törətdiyi təxribatları, terror aktlarını, cəbhəboyu ərazilərə yaxın yaşayış məntəqələrini ağır artilleriya qurğularından atəşə tutmasını, dinc əhalini qətlə yetirməsini seyr etməkdən ibarət olub: "Məgər beynəlxalq hüququn norma və prinsiplərində seyrçi mövqedə dayanmaq tələb olunur? Azərbaycan dövləti daim münaqişənin həllində bütün beynəlxalq təşkilatların malik olduqları potensialdan istifadə etmək istəyini ortaya qoysa da, ATƏT-in Minsk qrupunun həmsədrləri bunu onların vasitəçilik missiyasına maneə, ən əsası Azərbaycan tərəfinin vasitəçilikdən imtinası kimi dəyərləndirirdilər. 30 il imitasiya naminə danışıqlara dəstək olan qurum Dağlıq Qarabağ münaqişəsinin artıq tarixə qovuşmasından sonra bölgədə sabitliyin təşviqindən, vasitəçilikdən bəhs edirsə, məsələyə belə yanaşma təəccüb doğurmaya bilməz. Məlum olduğu kimi, ATƏT-in Minsk qrupunun həmsədrləri (Rusiya Federasiyasından İqor Popov, Fransadan Stefan Viskonti və ABŞ-dan Endryu Şofer) birgə bəyanat yayıblar. ATƏT-in rəsmi saytında yer alan həmin bəyanatda deyilir ki, ATƏT-in Minsk qrupunun həmsədrləri fevralın 16-da Ermənistan xarici işlər naziri Ara Ayvazyan və Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə videokonfrans formatında ayrı-ayrılıqda görüş keçiriblər. ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi Nümayəndəsi Andjey Kaspşik görüşlərə qatılıb. Həmsədrlər nazirlərlə bölgədə sabitliyin təşviqi, vasitəçilik prosesi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin rolu ilə əlaqədar fikir mübadiləsi aparıblar."

Baş redaktor vurğulayıb ki, Azərbaycan İkinci Qarabağ münaqişəsində hərbi-siyasi Qələbəsi ilə yeni reallıqlar yaradıb: "Bu reallıqlar, eyni zamanda, yeni əməkdaşlıq formatlarını formalaşdırır. 10 noyabr Bəyanatının 9-cu bəndi, iqtisadi əlaqələrin qurulması əsasında yanvarın 11-də Moskvada Rusiya və Azərbaycan prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladıqları birgə Bəyanat da bu reallığın təqdimatı olmuşdur ki, regionda yeni reallıqlar yaradan Azərbaycan üçtərəfli razılaşmada əksini tapan bütün müddəaların icrasında maraqlıdır, ən əsası regionda sabitliyin, sülhün və təhlükəsizliyin təminatı iqtisadi əlaqələrin qurulmasına geniş imkanlar açır. O da məlumdur ki, yanvarın 30-da münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyini artırmaq məqsədi ilə Ağdamda Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətə başlaması Azərbaycan-Türkiyə, Azərbaycan-Rusiya, eyni zamanda, Rusiya-Türkiyə tərəfdaşlığının daha bir əyani təzahürü kimi qeyd edilir. Mərkəz tərəflər arasında əldə olunmuş razılaşmanın şərtlərinin yerinə yetirilməsində, mümkün insidentlərin qarşısının alınmasında, araşdırılmasında effektiv və etibarlı nəzarəti təmin edəcək."

Vüqar Rəhimzadənin qənaətinə görə, Azərbaycan 44 günlük Vətən müharibəsi ilə həm dünyanın aparıcı dövlətlərinə, həm də nüfuzlu beynəlxalq təşkilatlara sübut etdi ki, münaqişənin hərbi yolla həlli variantı mümkündür və Azərbaycan tarixi Qələbəni məhz döyüş meydanında qazandı. "Hərbi variant yoxdur" deyənlərin əsas məqsədi mövcud vəziyyəti olduğu kimi saxlamaq idi. Dövlətimizin başçısı status-kvonu, təmas xəttini rədd etməklə, bu fikrə düşənlərin bütün planlarını alt-üst etdi: "ATƏT-in Minsk qrupunun həmsədrləri artıq şahiddirlər ki, 30 ilə yaxın davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşub. Məsələnin nizamlanmasında müvafiq mandata sahib olan ATƏT-in Minsk qrupu 28 il ərzində münaqişənin həlli istiqamətində hansısa irəliləyişə nail ola bilmədi. Əgər münaqişə tarixin arxivinə qovuşubsa, ölkəmizin həyatında yeni quruculuq və bərpa dövrü başlanıbsa, işğaldan azad edilmiş ərazilərimiz Böyük Qayıdışa hazırlanırsa, ən əsası 10 noyabr üçtərəfli razılaşmasının, həmçinin 11 yanvar Bəyanatının müddəaları uğurla icra edilirsə, Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi üzərinə düşən missiyasını layiqincə yerinə yetirirsə ATƏT-in Minsk qrupunun həmsədrlərinin hansı missiyanı yerinə yetirəcəyi maraq doğurur."

Baş redaktor bu ümumiləşdirməni aparıb ki, istər 30 ilə yaxın müddətdə, istər həqiqət anı kimi dəyərləndirilən 44 günlük İkinci Qarabağ müharibəsi, istərsə də postmüharibə dövründə baş verən proseslər münaqişənin həlli üçün möhkəm hüquqi bazanın mövcudluğu şəraitində nizamlanmamasının əsas səbəbini bir daha açıqladı: "Bu, dünyada baş alıb gedən ikili standartlar, siyasi riyakarlıq və islamofobiyadır. Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev yenilməz iradəsi və qətiyyəti ilə bunları da darmadağın etdi. Bu gün qarşıda dayanan əsas məsələ 44 günlük İkinci Qarabağ müharibəsində nümayiş etdirdiyimiz dəmir yumruğu bərpa işlərində də qorumaq, işğaldan azad olunmuş bölgələrimizi cənnətməkana çevirmək, öz doğma yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızın Böyük Qayıdışını təmin etməkdir. Xalqımız tam əmindir ki, sarsılmaz iradəsi və yenilməz qətiyyəti ilə Azərbaycanın ərazi bütövlüyünü təmin edən Müzəffər Ali Baş Komandanımız, qalib Sərkərdə İlham Əliyevin rəhbərliyi ilə yeni prioritetlər reallığa çevriləcək, doğma Qarabağımızda yenidən həyat canlanacaq, vətəndaşlarımız sülh və əmin-amanlıq şəraitində yaşayacaqlar."

# Qiymət artımı: təbiidir, yoxsa süni?

**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin ötən gün keçirilmiş "2020-ci ilin yekunları" adlı onlayn konfransında Xidmətin rəis müavini Məmməd Abbasbəyli bildirib ki, hazırda qiymətlərin süni artırılması üzrə hansısa qanun pozuntusu aşkar edilməyib. O vurğulayıb ki, müəyyən kateqoriya məhsulların (şəkər tozu və yağı nəzərdə tutub) qiymətləri qlobal bazarlarda yüksəlməkdədir. Ölkəmizdə isə bu məhsulların böyük həcmdə istehsalı yoxdur: "Biz dünya birjalarını da izləyirik və görürük ki, qlobal birjalarda bahalaşmalar baş verir və bununla əlaqədar olaraq Azərbaycanda da qiymət artımları yaranır". Xidmətin rəis müavini deyib ki, ərzaq məhsulları üzrə 57 adda, meyvə-tərəvəz məhsulları üzrə 28 adda, tikinti məhsulları üzrə isə 51 adda məhsulun monitorinqini aparırlar.**

"İki sahil" Dövlət Statistika Komitəsinə istinadən xatırladır ki, 2021-ci ilin yanvar ayında istehlak qiymətləri indeksi (Bu göstərici müəyyən dövr ərzində istehlak edilən malların və xidmətlərin dəyişməz qaldığı şəraitdə əhalinin istehlak xərclərinin ümumi məbləğinin dəyişməsini əks etdirir) 2020-ci ilin yanvar ayına nisbətən 103,3 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 104,6 faiz, qeyri-ərzaq məhsulları üzrə 103,5 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 101,3 faiz təşkil edib.

Həmçinin 2021-ci ilin yanvar ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,2 faiz təşkil edib. Ay ərzində ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,4 faiz təşkil edib və daha çox bahalaşma unun, yumru düyünün, manna və qarabaşaq yarmasının, makaron məmulatlarının, kolbasa məmulatlarının, təzə balığın, südün, qatılaşdırılmış şəkərli südün, yoqurtun, xamanın, pendirin, yumurtanın, kərə, zeytun, günəbaxan və qarğıdalı yağlarının, naringinin, almanın, armudun, heyvanın, narın, xurmanın, fındığın, kələmin, xiyarın, bibərin, badımcanın, balqabağın, çuğundurun, yerkökünün, kartofun, soğanın, sarımsağın, şəkər və şəkər tozunun, meyvə şirəsinin, pivənin qiymətində qeydə alınıb.

Ay ərzində faiz etibarilə daha çox bahalaşan yumurta (5,9 faiz), tərəvəzlər (5,9 faiz), meyvələr (3,2 faiz) olub. M.Abbasbəylinin dünya birjalarında bahalaşdığını vurğuladığı kərə və bitki yağları 1 faiz, şəkər tozunun aid olduğu məhsul qrupunda isə 1,2 faiz bahalaşma qeydə alınıb.

Qeyd edək ki, yumurta ölkədə tam şəkildə özünütəminetmə səviyyəsinə məhsulların sırasındadır. Həmçinin meyvə və tərəvəz də bu siyahıya daxildir və ölkədən onların ixracı da həyata keçirilir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2019-cu ildə ölkədə makaron məmulatları ilə özünütəminetmə səviyyəsi 24,7 faiz, bitki yağları üzrə 33,6 faiz, kərə yağı üzrə 69,5, meyvə və tərəvəz şirələri üzrə 126,7 faiz, pendir üzrə 87,7 faiz, şəkər üzrə 75 faiz, balıq və balıq məhsulları üzrə 82,2 faiz, süd və süd məhsulları üzrə 86,3 faiz olub. Ötən müddətdə ölkədə bu məhsullar istehsalının əhəmiyyətli dərəcədə azalmasına, istehlakının və ixracının isə artmasına rast gəlinmədiyini nəzərə alanda, qiymət artımının özünütəminetmə ilə ciddi bağlantısının olmadığı üzə çıxır.



Həmçinin dünya bazarlarında ərzaq qiymətlərinin artması da yeni proses deyil. Son müddətdə bahalaşma daha çox buğda ilə bağlıdır və bunun yerli bazara təsirini minumuma endirmək üçün tədbirlərə başlanılıb. Bu baxımdan həmin məhsullar üzrə qiymətə özünütəminetmə səviyyəsi yox, mövsümi amillərin daha çox təsiretmə ehtimalı yaranır. Ancaq müqayisənin qış ayları üzrə aparıldığını nəzərə alanda, bu amilin burada ciddi təsir malik olduğunu demək çətindir.

Eyni zamanda, yanvar ayının əksər günlərində pandemiyadan irəli gələn karantin tədbirləri səbəbindən əksər qeyri-ərzaq məhsullarının satışını həyata keçirən subyektlər fəaliyyət göstərməsə də bu qrupdan olan məhsullar üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 102,5 faiz təşkil edib. Dövlət Statistika Komitəsi qiymət artımını Aİ-92 markalı avtomobil benzininin və dizel yanacağının pərakəndə satış qiymətlərinin artırılması, habelə pambıq parçaların, yağlı və sulu boyaların, divar kağızlarının, kəsilmiş taxtanın, kərpicin, sementin, soyuducuların, paltaryuyan maşınların, kondisionerlərin, tozsoranların, televizorların, noutbukların və zərgərlik məmulatlarının qiymətlərində bahalaşmanın müşahidə olunması ilə izah edib.

Hərçənd ki, Komitənin digər statistika görə, ötən ay 2020-ci ilin yanvar ayı ilə müqayisədə ölkənin pərakəndə ticarət dövriyyəsi real ifadədə 1,4 faiz, o cümlədən qeyri-ərzaq malları üzrə 4,8 faiz azalıb, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə isə 1,8 faiz artıb. Bütün bunların fonunda qiymət artımının tələb-təkliflə elə də böyük əlaqəsinin olmadığı ortaya çıxır. Bu isə subyektiv amillərin qiymət artımında daha böyük rola malik olduğunu nümayiş etdirir.

***Ceyhun Piriyev***

# Un istehsalı ilə məşğul olanlara subsidiya veriləcək

**Un istehsalı ilə məşğul olan şəxslərə subsidiya veriləcək. AZƏRTAC xəbər verir ki, Nazirlər Kabineti "Ərzaqlıq buğdanın idxal qiymətinin artmasının ölkə daxilində satılan un və un məmulatlarının qiymətinə mənfi təsirlərinin azaldılması ilə bağlı əlavə tədbirlər barədə" Qərar qəbul edib.**



Qərara əsasən, un istehsalı ilə məşğul olan şəxslərə satılan unun hər tonuna görə bu ilin fevralın 1-dən mayın 1-dək olan dövrdə 35 manat məbləğində subsidiya veriləcək. İqtisadiyyat Nazirliyi Maliyyə Nazirliyi ilə razılaşdırmaqla satılan unun hər tonuna görə un istehsalçılarına subsidiyanın verilməsi qaydasını təsdiq edəcək. Həmçinin İqtisadiyyat Nazirliyi un istehsalçılarına verilən subsidiyanın bu qaydaya uyğun ödənilməsini təmin etməlidir. Subsidiyanın ödənilməsi məqsədilə İqtisadiyyat Nazirliyinin Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifinə əsasən 2021-ci il dövlət büdcəsinin Ehtiyat Fondundan müvafiq məbləğdə vəsait ayrılacaq.

İqtisadiyyat Nazirliyi Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi və "Azərbaycan Dəmir Yolları" QSC ilə birlikdə ərzaqlıq buğda ehtiyatının yaradılması və dünya birjalarında buğda qiymətlərinin ölkədaxili buğda qiymətlərinə təsirinin azaldılması üçün müvafiq tənzimləmə və nəzarət üzrə dayanıqlı mexanizmin formalaşdırılmasına dair təkliflərini 2 ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidir.

## Nazir: Azərbaycanın İstanbuldakı baş konsulluğunda yaxın gələcəkdə ticarət nümayəndəliyi yaradılacaq



Azərbaycanın İstanbuldakı baş konsulluğunda yaxın gələcəkdə ticarət nümayəndəliyi yaradılacaq. AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib. Nazir qeyd edib ki, bu, Azərbaycanın qardaş Türkiyə ilə iqtisadi-ticarət əlaqələrinin daha da genişlənməsinə töhfə verəcək.

## Pensiyaçılara şad xəbər



Son bir ildə Dövlət Sosial Müdafiə Fondu yaşa görə pensiya təyin olunduqdan sonra azı altı il işləmiş 6 297 pensiyaçının pensiyasını yenidən hesablayaraq artırıb. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən SİA-ya bildirilib. Qeyd edilib ki, "Əmək pensiyaları haqqında" Qanuna əsasən, vətəndaş yaşa görə pensiya təyin olunduğu gündən etibarən işləməyə davam edərsə, hər altı ildən bir onun hesabında toplanmış sosial sığorta haqqı 72-yə (6 il-12 ay) bölünərək onun pensiyasının üzərinə əlavə olunur.

Bu da işləyən pensiyaçıların mənafelərinin daha dolğun təmin olunmasına imkan verir. Həmçinin yaşa görə pensiyaya çıxdıqdan sonra işləməyə davam edən şəxslər arasında sosial sığorta sistemində aktiv iştiraka marağın artmasını stimullaşdırır.



## Dünya Bankı: Manatın məzənnəsi yüksək səviyyədə qalır

**Bu ilin yanvar ayında Azərbaycanda xarici valyutaya tələbatın artmasına baxmayaraq, manatın dollara qarşı məzənnəsi 1,7 AZN/USD səviyyəsində sabit qalıb. Bu barədə ölkə iqtisadiyyatına dair Dünya Bankının aylıq hesabatlarının (Azerbaijan Monthly Economic Update) fevral buraxılışında bildirilir.**

"Dövlət Neft Fondu (SOFAZ) yanvar ayında 645 milyon ABŞ dolları, yəni ötən ilin müvafiq dövrü ilə müqayisədə məbləğin iki mislindən artıq və aylıq limitdən 8 faiz artıq valyuta satıb", - hesabatda göstərilir. "Həmçinin AMB manatın likvidliyini azaltmaq üçün not buraxılışını artıraraq yanvar ayının sonuna olan vəziyyətə görə, 1 milyard manat məbləğində not buraxıb ki, bu da dekabr ayının sonuna nisbətən 60 faiz çoxdur", - sənəddə qeyd olunur.

# Ermənistan "anti-Türkiyə alyansı"na niyə qatılmadı?

## Və ya revanşist qüvvələr əks halda hansı ağır nəticələrlə qarşı-qarşıya qalacaqlar?




Fevralın 11-də Yunanıstanın paytaxtı Afinada qeyri-formal "Anti-Türkiyə alyansı" kimi təqdim edilən yeddi ölkənin - Yunanıstanın, Kiprin rum kəsiminin, Fransanın, Misirin, Səudiyyə Ərəbistanının, Bəhreynin və Birləşmiş Ərəb Əmirliklərinin birgə toplantısı olub. Söz yox ki, bu kimi toplantının məqsədi də məhz Türkiyənin dünyada güc faktoruna çevrilməsi təlaşından irəli gəlir və müzkirələrdə "türk ekspansionizmi və onunla mübarizə" ətrafında danışıqların aparılması da belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır.

"Sammitin" keçirilməsinə bir gün qalmış Ermənistan XİN-nin rəhbəri parlamentin tribunasından bildirmişdi ki, Türkiyənin bundan sonra sərhədləri bağlı saxlamasına bəhanəsi ola bilməz

Lakin "Anti-Türkiyə alyansına" daxil olan ölkələrin Yaxın Şərqdə, Avropa məkanında, Asiyada və Qafqazda mövqelərini gücləndirən Türkiyənin bundan sonrakı plan və məqsədlərinin qarşısının alınması istiqamətində göstərdiyi cəhdləri də nəzərdən yayınmır. Bunu Türkiyə tərəfi də yaxşı bilir və o da əbəs deyil ki, qardaş ölkənin XİN-i keçirilən "sammiti" düşmən məqsədli adlandırıb.

Ancaq "alyansın" növbəti toplantısında daha bir ölkənin - Ermənistanın yer almaması da diqqətdən yayınmayıb. Halbuki, əvvəlki illərdə erməni siyasi dairələri orada iştirak edərək, kirli məqsədlərini həyata keçirməyə cəhdlər göstərirdi.

Bu arada, Ermənistanın "Anti-Türkiyə alyansının" toplantısına qatılmaması faktı elə erməni ictimai-siyasi rəyinin də gözündən yayınmayıb. Daha dəqiq desək, Ermənistan xarici işlər naziri, hətta nazirliyin kiçik məmuru olsa belə, "sammitdə" görünməyib. Bununla bağlı Ermənistanın Vatikandakı sabiq səfiri, keçmiş prezident Serj Sarqsyanın kürəkəni Mikael Minasyan maraqdoğurucu amillərə toxunaraq bildirib ki, "sammitin" keçirilməsinə bir gün qalmış Ermənistan XİN-nin rəhbəri parlamentin tribunasından bildirmişdi ki, Türkiyənin bundan sonra sərhədləri bağlı saxlamasına bəhanəsi ola bilməz. Yəni Minasyana görə, XİN rəhbəri Türkiyə ilə sərhədlərin açılmasında maraqlıdır və bu istiqamətdə işlər aparılır. Daha dəqiq isə, artıq Ermənistanın Türkiyə əleyhinə formalaşdırılmış "alyansda" iştirak etmək məqsədi yoxdur.

Türkiyənin geosiyasi, iqtisadi, regional və s. maraqlarına qarşı yığışan ölkələrdən imtina etmək artıq "Anti-Türkiyə alyansına", orada qəbul edilən qərarlara dəstək verməmək anlamını daşıyır

Təbii ki, əgər belədirsə, bu qərara yalnız müsbət məcradan yanaşmaq olar. Belə ki, açıq-aşkar Türkiyənin geosiyasi, iqtisadi, regional və s. maraqlarına qarşı yığışan ölkələrdən imtina etmək artıq "Anti-Türkiyə alyansına", orada qəbul edilən qərarlara dəstək verməmək anlamını daşıyır. Hazırda bunu dərk edən erməni müxalifət dairələri, xüsusilə Ermənistanın keçmiş prezidentinin ətrafı, həmçinin Minasyan belə bir nəticəyə gəlib ki, Ermənistanın Afina "sammitinə" qatılmaması "gerçək müttəfiqlərin" itirilməsini nümayiş etdirir, həmçinin, "alyans" üzvləri də İrəvanı "sammitdə" nə Anti-Türkiyə faktoru baxımından, nə də partnyor olaraq layiqli tərəf kimi qəbul etmir. "İstisna etmək olmaz ki, Yunanıstan hər şeyə rəğmən erməni tərəfini dəvət edib, lakin İrəvan Ankaranı qıcıqlandırmamaq üçün iştirakdan imtina edib", deyə Minasyan bildirib.

Ermənistan ikinci Qarabağ müharibəsində sarsıdıcı məğlubiyyətə uğradıqdan sonra olan-qalan beynəlxalq nüfuzunu da itirdi və siyasi-iqtisadi maraqlarının bərpası, yenidən qurulması üçün onun başqa çıxış yolu da qalmayıb

Hər halda, fakt budur ki, Qafqaz regionunda cinahlar dəyişir və yalnız Türkiyə deyil, Rusiya faktoru da Ermənistanı müəyyən məsələlərdə hesablaşmağa məcbur edir. Misal üçün, Rusiyanın Türkiyə ilə son zamanlar ortaq məxrəclərə gəlmək maraqlarını artırması, yaxud Kremlin də "Anti-Türkiyə alyansına" barmaqarası baxması və digər məsələlər qeyd olunan fikirləri təsdiq edir.

Bu halda, daha bir vacib məqam budur ki, Ermənistan ikinci Qarabağ müharibəsində sarsıdıcı məğlubiyyətə uğradıqdan sonra olan-qalan beynəlxalq nüfuzunu da itirdi və siyasi-iqtisadi maraqlarının bərpası, yenidən qurulması üçün onun başqa çıxış yolu da qalmayıb. Artıq sərhədlərin, nəqliyyat yollarının açılması faktorunun tələbə çevrilməsi və bu kontekstdə aparılan müzakirələr də erməni tərəfinin baxış məxrəclərini dəyişməsi şərtini ortaya qoyur. Minasyan və s. revanşist qüvvələr isə əslində, bunu istəmir və bütün hallarda Ermənistanın hakimiyyət dairələrini neotürkçülükdə ittiham edirlər. Ancaq unudurlar ki, hətta Ermənistanın mövcud iqtidarını güc yolu ilə dəyişsələr, yenidən özləri hakimiyyətə yiyələnsələr və revanşizm üsuluna əl atsalar, bu zaman daha ağır nəticələrlə qarşı-qarşıya qalmış olacaqlar.

**Rövşən RƏSULOV**

# İsrail mediasında Xocalı soyqırımının dəhşətlərindən bəhs edilib


p-Ed: Azerbaijan—From Darkness to Light
11.02.2021
By Rachel Avraham
Rahila Rashid qizi Hajiyeva, a Khojaly genocide survivor, related in *Khojaly: A Crime against Humanity*: "The Armenians seized Khojaly during the night of February 25, 1992. They burned houses, killed innocent people, and plundered our property. The people were forced to flee from their homes. But we could not leave our house. The Armenians came into our house and captured us. The Armenians raped us several times. They beat us with machine gun barrels and bludgeons and didn't give us any food. A man whose name was Karo was among the Armenians who tortured us. He was even more cruel than the others. He was tying captives arms and legs, and then beating and breaking them with a baton. He inserted burning cigarettes into their eyes and different parts of their bodies and raped women."
Bloody events that occurred throughout human history remain in our hearts and minds forever. From the Holocaust to the Rwandan Genocide to Khojaly, we must always stress not only "Never AGAIN" but bear witness for the sake of the victims. Their testimony demonstrates to us the importance of preserving humanism in the face of genocide and crimes against humanity. To do anything less than remember, bear witness and vow to fight injustice in every place in the world would be to insult the victims of crimes against humanity across the globe.
For as Elie Wiesel once said, "The opposite of love is not hate. It is indifference. The opposite of art is not ugliness. It's indifference. The opposite of faith is not heresy. It's indifference. And opposite of death is not death. It's indifference." Indeed, to sit back, watch atrocities occur and do nothing is also a grave evil for as Edmund Burke once said, "The only thing neccessary for triumph of evil is for good people to do nothing."

İsrailin "peacecom.org" xəbər saytında Xocalı soyqırımından bəhs edən "Azərbaycan - qaranlıqdan aydınlığa" sərlövhəli məqalə dərc olunub. SİA-nın xəbərinə görə, siyasi şərhçi Reyçel Avraamın qələmə aldığı məqalə ermənilərin törətdikləri Xocalı soyqırımının dəhşətlərini yaşamış Rəhilə Rəşid qızı Hacıyevanın şahidi olduğu hadisələrin təsvirindən başlayıb.

1992-ci ilin dəhşətli günündə Xocalıda 613 azərbaycanlının öldürüldüyünü, 487 nəfərin əlil halına salındığını, 1275 sakinin əsir, 150 nəfərin itkin düşdüyünü xatırladan müəllif yazıb: "Xocalı şəhəri tamamilə yandırılmışdı. Şəhərdəki mülki vətəndaşların əksəriyyətinin başı kəsilmişdi, gözləri çıxarılmışdı, dəriləri soyulmuşdu, diri-diri yandırılmışdı və ya tanınmaz hala salınmışdı. O zaman "Le Mond"un xəbər verdiyi kimi, "Ağdamdakı xarici jurnalistlər Xocalıda qətlə yetirilmiş qadın və uşaqların arasında başları kəsilmiş və dırnaqları çıxarılmış 3 meyit görmüşdülər. Bu, Azərbaycan təbliğatı deyil, gerçəklikdir".

Sivil millət kimi Azərbaycan xalqının Holokostdan tutmuş Ruanda, Bosniya, Xatın və Xocalı soyqırımının daxil olduğu bütün soyqırımları, kütləvi qırğınları, dünyada fanatizm və nifrət zəminində törədilmiş terror və təcavüzkar aktlarını qətiyyətlə pislədiyini vurğulayan müəllif qeyd edib ki, xalqımız hər il fevralın 26-da Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edir və insanlığa zidd cinayəti törədənlərin mühakimə edilməsini və cəzalandırılmasını tələb edir.

Məqalədə bu ağır faciəni və erməni təcavüzkarlığının digər fəsadlarını yaşamış xalqımızın öz güclü iradəsinə söykənərək bugünkü müasir, tolerant və multikultural cəmiyyət yaratmasına, Azərbaycanın bəşəriyyətin ən qədim insan məskənlərindən biri olduğuna, bunun sübutu olan Azıx mağarasının Vətən Müharibəsindəki qələbədən sonra öz sahibinə qovuşduğuna diqqət cəlb edilib. Məqaləni daha ətraflı şəkildə aşağıdakı linkdən oxumaq mümkündür: https://www.peacecom.org/en/article/1756/

**Gülyana**

# Ohanyandan etiraf: "Ermənistan hakimiyyəti müharibənin olması üçün hər şeyi etdi"



"Ermənistandakı hakimiyyət müharibənin olması üçün hər şeyi etdi". SİA xəbər verir ki, bunu Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyan "Aysor"a müsahibəsində deyib. S.Ohanyan bildirib ki, "İskəndər" əməliyyat-taktiki sistemlərindən müharibədə istifadə edilməsini hamı kimi mediadan öyrənib.

O, müharibədəki məğlubiyyətin əsas səbəbini dövlət idarəetmə sistemi, hökumət, parlament və cəmiyyətdə görür: "Bundan başqa, hərbi-siyasi vəziyyətdən hali olmayan Təhlükəsizlik Şurası bütün imkanlarından istifadə etməyib və hərbi-siyasi vəziyyətdən nəticə çıxarılmasına yönəlməyib. Başqa bir səbəb isə səfərbərlik tapşırıqlarının yerinə yetirilməməsi ilə əlaqədar olub. Növbəti səbəb dövlət qurumlarından komandanlıq postlarına qədər intizam səviyyəsinin aşağı olması və məhkəmə və ya məhkəmə-hüquq sistemi tərəfindən tam olaraq qiymətləndirilməməsidir".

Ohanyanın sözlərinə görə, müharibə zamanı Ermənistan ordusu vahid mərkəzdən idarə olunmayıb: "Başqa sözlə desək, Ermənistandakı mövcud hökumət müharibəyə başlamaq üçün hər şeyi edirdi, lazımi əmr vermək üçün heç bir şey etmirdi, üstəlik, müharibə zamanı məğlub olduğumuz istiqamətlərdə komandanlıq təşviq edildi".

**Aysel Məmmədova**

# Vladimir Putin: "Rusları gözə çarpan dəyişikliklər gözləyir"



Seçki kampaniyasının yaxınlaşması parlamentdə müzakirə dərəcəsini yüksəldir, bu baxımdan ki, yaxınlaşan seçkilər, xüsusən dəyişiklik tələb edən vətəndaş cəmiyyəti üçün böyük əhəmiyyət kəsb edir. SİA xəbər verir ki, bu sözləri Rusiya prezidenti Vladimir Putin, çərşənbə günü Rusiya Dövlət Duması fraksiya rəhbərləri ilə onlayn formatda keçirdiyi görüş zamanı söyləyib.

"İnsanlar sadəcə gözləmirlər, haqlı olaraq maddi, görünən nəticələr və dəyişikliklər tələb edirlər", deyə Rusiya lideri bildirib. Prezident vurğulayıb ki, Dövlət Dumasına seçkilərdə səs verərkən, rusların seçimi müdaxilə cəhdlərindən qorunmalıdır və müdaxilə halları yolverilməzdir. Seçki prosesi, Putinə görə, "açıq, dürüst, ləyaqətlə və yüksək rəqabət əsasında" keçirilməlidir.

Eyni zamanda, dövlət başçısı fərqli nöqteyi-nəzərdən yanaşanlarla və ya kritik yanaşma sərgiləyənlərlə danışıqların aparılmasının vacibliyini qeyd edib. Həm də ən barışmaz müxaliflərlə belə mədəni dialoqa riayət edilməsinə çağırış edib. Bundan əlavə, Rusiya prezidenti İT şirkətlərinin və xarici İnternet platformalarının fəaliyyətinə diqqət çəkərək bunu Rusiya üçün ciddi bir problem adlandırıb.

"İT şirkətləri yalnız bizim üçün ciddi bir problem deyil, Ştatlarda nələrin baş verdiyini də görürük. Artıq demişəm və yalnız təkrarlaya bilərəm ki, ölkələrində olduqları təqdirdə özlərini müstəsna hesab edərək başqalarına necə münasibət göstərəcəklərini bilirsiniz. Bu, ciddi bir sualdır. Əlbəttə, bu barədə əvvəlcədən düşünməliyik. Bu, açıq-aşkar bir məsələdir", deyə dövlət başçısı bəyan edib.

Xatırladaq ki, Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının deputatlarının VIII çağırış seçkiləri 1921-ci il sentyabrın 19-da tək bir səsvermə günü keçirilməlidir. Onu da qeyd edək ki, Rusiyada narazılıqlar fonunda nümayişlərin olduğu da diqqət mərkəzindədir. Küçə və meydanlara çıxanlar tələblərlə çıxış edirlər ki, bu da Rusiya hökumətini narahat etməyə bilməz. Məsələ burasındadır ki, Rusiya ilə əzəli və əbədi düşmən, ən azından rəqib olan Qərb bu vəziyyətdən sui-istifadə etmək, sanksiyalar, müxtəlif təsir variantları tətbiq etmək niyyətindədirlər. Görünür, Rusiya hökuməti, eləcə də Rusiya lideri, prezident Vladimir Putin bunun fərqindədir və öz çıxışından da bütün bunları nəzərə alıb.

**İnam Hacıyev**

# 145 nəfər yoluxub, 3 nəfər vəfat edib




Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 145 yeni yoluxma faktı qeydə alınıb, 155 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 232 636 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 227 271 nəfər müalicə olunaraq sağalıb, 3 190 nəfər vəfat edib, aktiv xəstə sayı 2 175 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7 216, ötən müddət ərzində isə ümumilikdə 2 528 610 test aparılıb.

# Erməni siyasi-ictimai rəyi Rusiya qarşısında diz çöksə də...

## *Azərbaycanın maraqları qarşısında acizliklərini etiraf edirlər*

**Ermənistanın Konstitusiya məhkəməsinin keçmiş rəhbəri Edqar Kazaryana görə, Qarabağdakı müharibəni Rusiya saxladı və əks halda hadisələr tamamilə başqa istiqamətdə cərəyan edəcəkdi. Onun ikibaşlı münasibətindən isə belə nəticəyə gəlmək olar ki, Rusiya bir tərəfdən Ermənistanın Qarabağdakı məğlubiyyətinə göz yumur, digər tərəfdən isə müxtəlif dəstəkləri ilə siyasi və s. maraqlarını mövqe olaraq möhkəmləndirməyə çalışır.**

### Konstitusiya məhkəməsinin keçmiş rəhbəri Edqar Kazaryan: **"Araik Arutunyan helikopterlə Bakıya aparılır..."**

Kazaryan bildirib ki, əgər noyabrın 9-da müharibə dayandırılmasa idi, aydın olacaqdı ki, Araik Arutunyan noyabrın 10-da helikopter vasitəsi ilə Bakıya aparılır. "Orada onu telekameralar qarşısında otuzduraraq Qarabağ ermənilərinə müraciət səsləndirməyi əmr edəcəkdilər", deyən keçmiş məhkəmə sədri əlavə edib: "Aydın idi ki, Azərbaycan bütün Dağlıq Qarabağ üzərində total nəzarəti təmin etməlidir. Əks halda Qarabağda rus sülhməramlıları yerləşməməli idi. İstənilən halda onlar (ruslar) Dağlıq Qarabağda olmalıydılar, çünki bu, Rusiya Federasiyasının çoxdankı arzusu idi".

Beləliklə, Kazaryan demək istəyir ki, Ermənistan Rusiyanın müttəfiqi olmasına baxmayaraq, hadisələr Azərbaycanın xeyrinə işləyir. Daha dəqiq desək, rus sülhməramlılarının nəzarət etdikləri bölgələr də Azərbaycana məxsusdur və artıq proseslər də həmin istiqamət üzrə inkişaf edir.

### Sabiq məhkəmə sədri: **"Dağlıq Qarabağ daha ermənilərin deyil"**




SİTAT: "Məhz buna görə bizim Dağlıq Qarabağ üzərində nəzarətimiz yoxdur. Dağlıq Qarabağ daha ermənilərin deyil. Dağlıq Qarabağın böyük hissəsi azərbaycanlılar tərəfindən "ələ keçirilib" (dırnaqlar bizimdir) və ruslar yalnız kiçik bir ərazini saxlamağa müvəffəq olublar ki, bu da geosiyasi problemlərini həll etmələri üçündür".

Göründüyü kimi, iqtidar, ya da müxalifət təmsilçilərindən fərqli olaraq, Ermənistan Konstitusiyasının sabiq sədri Edqar Kazaryan rusların Qarabağdakı mövcudluqlarını ermənilərin Dağlıq Qarabağı itirmələri qismində təsəvvür edir və onu da bildirir ki, artıq ermənilərin "artsax" ideologiyaları tamamilə iflasa uğrayıb. Həmçinin, Rusiya geosiyasi maraqlarını təmin etmək üçün Azərbaycanın əlinə oynayır.

### Erməni hüquqşünası Amram Makinyan: **"Araik Arutunyan "fərmanı" Azərbycanın tələbi əsasında imzalayıb"**

Bu arada, tanınmış erməni hüquqşünası və vəkili Amram Makinyan da maraqlı düşüncəsini bölüşüb və Qarabağın "suverenliyinin" itirildiyini deyib. "Qarabağın "suverenliyinin" (dırnaqlar bizimdir) itirilməsinin ilk "qaranquşları" adlı yazısında qondarma "respublikanın" saxta "prezidenti" Araik Arutunyanın fəaliyyətinə toxunan Makinyan yazır: "Araik Arutunyan fevralın 17-də 2022-ci ilin 1 mart tarixinə qədər "yerli idarəetmə orqanlarına seçkilərin" keçirilməyəcəyinə dair faktiki "fərman" imzalayıb. "Fərman" hərbi vəziyyətlə motivizasiya edilir".

Erməni hüquqşünas xatırladıb ki, "fərman" hərbi əməliyyatların faktiki başa çatdığı və sülhməramlıların mövcud olduqları dövrdə imzalanıb və ən azından, üçtərəfli sənədin imzalanmasının başa çatacağı dövrə qədər hər hansı bir hərbi əməliyyatların yenidən başlaması təhlükəsi yoxdur.

### Vəkil: **"Kapitulyasiyaya məruz qalmış "hakimiyyət" bu tələblərə sözəbaxan uşaq kimi əməl edir"**

Makinyan bu "fərmanın" məhz Azərbaycanın irəli sürdüyü tələbləri əsasında verildiyini iddia edib və bildirib: "Hər halda seçkilərin keçirilməməsi ilə bağlı tələbin Azərbaycan tərəfindən gəldiyini demək mənim hüququmdur və kapitulyasiyaya məruz qalmış "hakimiyyət" bu tələblərə sözəbaxan uşaq kimi əməl edir... Mən demək olar ki, tam şəkildə əminəm ki, bir gün bu barədə də eşidəcəyik".

Beləliklə, faktlar göz önündədir və bu faktları araşdırdıqca, yaxud müharibə başa çatandan sonra prosesləri, onların ətrafında aparılan erməni müzakirələrini izlədikcə, əslində, düşmən tərəfinin bütün cəhətlərdən başlarını necə itirmələrinin, çar-naçar qalmalarının şahidləri olmaqda davam edirik. Hər halda, ermənilərin bu qədər təlaşlanmaları, hətta müttəfiqlərinin belə onlardan əllərini çəkmələri kimi məsələləri qabartmaları da bu cür qənaətlərə gəlməyə əsas zəminləri yaratmaqdadır.

***Rövşən RƏSULOV***

# Azərbaycanda məşğul və işsiz əhalinin sayı bəlli oldu



2021-ci il yanvarın 1-i vəziyyətinə olan ilkin məlumatlara əsasən, ölkədə iqtisadi fəal əhalinin, yəni məşğul və işsiz əhalinin ümumi sayı 5 milyon 253,4 min nəfər olub. Dövlət Statistika Komitəsindən SİA-ya verilən məlumata görə, ötən il iqtisadi fəal əhalinin sayı 2019-cu ilin eyni dövrü ilə müqayisədə 1,2 faiz artıb. İqtisadi fəal əhalinin 4 milyon 877,3 min nəfərini məşğul əhali, yəni qanunvericiliyə zidd olmayan və qazanc gətirən hər hansı fəaliyyətlə məşğul olan Azərbaycan Respublikasının vətəndaşları və ya ölkədə daimi yaşayan vətəndaşlığı olmayan şəxslər, həmçinin əcnəbilər təşkil edib ki, onların sayı 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz azalıb.

Əlavə olaraq bildirilib ki, 2021-ci il yanvarın 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı ilkin məlumatlara əsasən 1 milyon 691,8 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 910,8 min nəfər, qeyri-dövlət sektorunda isə 781 min nəfər təşkil edib. İqtisadiyyatın neft-qaz sektorunda 33,8 min nəfər, qeyri neft-qaz sektorunda isə 1 milyon 658 min nəfər çalışıb.

# Rüşvət alma və rüşvət vermə cinayətləri artıb



Ötən il korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərin ümumi sayı 14,1 faiz azalsa da, onlardan rüşvət alma və rüşvət vermə cinayətləri 1,6 dəfə artıb.

Dövlət Statistika Komitəsindən SİA-ya verilən məlumata görə, artım tendensiyası terror xarakterli cinayətlərdə 1,6 dəfə olub. Artım tendensiyası saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satmada 44,4 faizlə, ictimai mənəviyyat əleyhinə cinayətlərdə 35,8 faizlə, kibercinayətlərdə 33,3 faizlə, cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitlərini və ya digər əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə, yaxud sərəncam vermədə 32,3 faizlə, torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozmada 24,4 faizlə, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərdə 19,8 faizlə, hədəqorxu ilə tələb etmədə 18,8 faizlə, insan alverində 6,2 faizlə, ekoloji cinayətlərdə isə 2,8 faizlə müşahidə olunub.

# Nürnberq məhkəməsinə namizədlər...

**Bu gün Ermənistanda hərbi vəziyyət davam edir. Maraqlıdır ki, Ermənistan konstitusiyasına görə, ölkə parlamentindəki səs çoxluğu hərbi vəziyyəti ləğv etmək hüququna malik olsa da, Nikol Paşinyan buna icazə vermir. Qeyd edək ki, əvvəllər Nikol bunu Azərbaycandakı hərbi vəziyyətin saxlanılması ilə əlaqələndirirdisə, indi isə onun bunu deməyə heç bir əsası yoxdur.**



Cünki Azərbaycanda artıq iki aydan coxdur ki, hərbi vəziyyət aradan götürülüb. Bu gün erməni deputatların böyük əksəriyyətinin fikrincə heç bir səbəb olmasa da, lakin Paşinyan hərbi vəziyyəti ləğv etməyə hələ ki, tələsmir. SİA yenidən erməni mənbələrindəki xülasələrə istinad edir.

Qeyd edək ki, ermənilər hələ də konstitusiyanı əsas gətirərək, 9 noyabr və 11 yanvar tarixlərində imzalanan sənədləri həyata keçirmək üçün Paşinyana yeganə hüquq verilmədiyini iddia edirlər. Onların iddisına görə, "suveren" bir dövlətin sərhədlərinin dəyişdirilməsi yalnız referendum yolu ilə mümkün olmalıdır. Amma bu gün Ermənistandakı hərbi vəziyyət ölkədə referendum keçirməyi qadağan edir.

Maraqlıdır ki, ermənilər Paşinyan hökumətinin xalqdan gizlətməyə çalışdığı başqa sənədlərin də ola bilməsini istisna etmirlər. Məsələn, erməni politoloq Stepan Danielyan üç il əvvəl Ağ Evin milli təhlükəsizlik müşaviri olan Con Boltonun İrəvan səfəri zamanı razılaşdırılmış hər hansı bir sənədin də yaxın gələcəkdə ortaya çıxa biləcəyindən ehtiyatlanır.

Hazırda ermənilər Nikol Paşinyanın Qarabağla bağlı danışıqların durğun vəziyyətə gətirib müharibəni uduzmasını, indi isə Sünikin də təslim etməyə davam etməsini yalnız sənədlərlə təsdiqlənmədiyini iddia edirlər.

Başqa bir erməni politoloq Qeqam Nazaryan isə bu gün də erməni əsgər və zabitləri arasında sorğu keçirməkdə davam etdiyini, sorgunun bəzi nəticələrinə görə, müharibənin məğlubiyyətə sonunclanmasında "şübhəli dəlillər" əldə etdiyini bildirib. Paşinyanın mühakiməsinin Nürnberqə layiq olduğunu bildirən erməni politoloq tezliklə "Nikolun xəyanətinə" dair bütün həqiqətləri ortaya qoyacağını bildirib.

Maraqlıdır ki, o da bütün bunların Paşinyanın istefasından və ölkədə hərbi vəziyyətin aradan qaldırılmasından sonra baş verəcəyini bildirib.

Mənə maraqlıdır. Məsələn, ötən gün Sarkisyanın Paşinyanı istehza ilə "dünyanın ən dürüst səlahiyyətlisi" və "demokratiya qalası"nın sahibi kimi təqdim edərək, müharibədən milyonlar qazandığını deməklə nəyə nail olmaq istədiyini hələ də anlamıram. Serjikə xatırlatmaq gərək, axı, Paşinyan hakimiyyətə gəlməmişdən əvvəl sizin onunla keçirdiyiniz beş dəqiqəlik debatda onu haqlı bilib getmənizi (buna aradan çıxmaq da demək olar), yadınıza salmağa ehtiyac varmı? Dünyanın müxtəlif ölkələrindən gözəl güzaran vədi ilə aldadıb Qarabağa gətirtdiyin ermənilərin burada müvəqqəti məskunlaşdığını sən Nikoldan da yaxşı bilirdin. Sən, tülküdən də üç gün qabaq doğulanın biri kimi, Azərbaycanın gec-tez indi düşdüyünüz həyatı sizlərə yaşadacağını, yəni öz torpaqlarını geri alacağını çox yaxşı bilirdin. Sən bəlkə də. həmin zamanın yetişdiyini anladığın üçün o vaxt, o beş dəqiqəlik debat zamanı Nikolun hakimiyyətinə gəlməsinə mane olmadın. Amma, indi türklər demiş, nə yazıq ki, çanaq Nikolun başında sındı.

Hazırda qurmaq istədiyiniz Nürnberq mühakiməsində Paşinyanın yanında oturmağa erməni axtarırsınız. Vaxtilə səninlə "silahdaş" olub günahsız, silahsız insanları öldürən Vitali Balasanyanı, Araik Arutyunyanı, daha nə bilim kimləri indi rusun kuklaları adlandırısız. Əslində, bu belə də olmalıydı. Çünki bu ermənilərin xislətindən irəli gəlir.

Yeri gəlmişkən, mənə görə, qurmaq istədiyiniz Nürnberq mühakiməsində Paşinyanın yanında oturmağa ən layiqli namizədlər elə səninlə Robert Köçəryandır. Levon Ter-Petrosyanın işi onsua da Allaha qalıb...

***Ağasəf Babayev***

# Cəllad Sarkisyan:
## Dünən və bu gün

Kütləvi informasiya vasitələrinin yaydığı məlumata görə, bu yaxınlarda Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan "Armnews" kanalına verdiyi müsahibəsində İkinci Qarabağ müharibəsi dövründə Ermənistan hərbi qüvvələrinin Azərbaycanın Gəncə şəhərindəki mülki yaşayış məntəqələrini qəsdən hədəfə aldıqlarını açıq şəkildə etiraf edib. Eyni zamanda, Sarkisyan öz müsahibəsində İkinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfinin İsgəndər əməliyyat-taktiki ballistik raket sistemindən istifadə etməsi məsələsinə toxunub və bu silahın müharibənin son dövründə Şuşa istiqamətində istifadə edildiyini bildirib. Sarkisyan faktiki olaraq Paşinyanı yaxşı terrorçu olmamaqda, əsgərlərin kütləvi toplanma ərazilərinə "İsgəndər" raketi atmamaqda suçlayır. Bu azmış kimi Sarkisyan Azərbaycanın reallaşdırdığı beynəlxalq enerji layihələrini, qaz və neft boru kəmərlərini bu raketlərlə vurulmamasını qəbahət hesab edib. Hərbi cani həmçinin Gəncədə bir mülki obyektin digər mülki hədəflə səhv salınmasını qeyri-dəqiqlik kimi qiymətləndirib.

Bu, uzun illər Ermənistan adlandırılan dövlətin və onun rəhbərlərinin terrorçu düşüncə sahibləri olduğunu bütün dünyaya bir daha nümayiş etdirmiş oldu. Daim uşaqları, qocaları öldürdüyünə, qızları əxlaqsız yola sövq etdiyinə görə, qürur hissi keçirdiyini deyən Sarkisyanın Qarabağ müharibəsi ilə bağlı xatirələri bunu deməyə əsas verir ki, bu adam əsl vəhşidir, terrorçudur. Cəllad Sarkisyanın cinayətkar əməlləri zaman-zaman ermənilərin özləri tərəfindən də etiraf olunub. Hələ 2017-ci ildə Erməni yazıçısı Anna Payatyan Sarkisyana nifrət etdiyini bildirərək Xocalı soyqırımını törədənləri açıq şəkildə ittiham etmişdi. A.Payatyan sosial şəbəkələrdə paylaşdığı statusunda yazırdı: "Kimlər ki, Njdeylədir, onlar Allaha qarşıdır, kimlər ki, Serj Sarkisyanladır-onlar İblisə işləyirlər. Kim düşünürsə ki, azərbaycanlılara münasibətdə bədheybət və qatil olmaq lazımdır və bunu vətənpərvərlik və ermənilərə sevgi kimi təqdim etmək olar, onları istintaqsız və məhkəməsiz güllələmək lazımdır. Xocalıda soyqırımı olub! Və bunun üçün quldurlar cavab verməlidir - Njde tərəfdarları. Onlar əsgər deyillər, cinayətkar və qatildirlər. Levon Ter-Petrosyan, Vazqen Sarkisyan, Robert Koçaryan, Serj Sarkisyan, Arabo qrupu... Onların hamısı uşaqların və qadınların qatilləridir! Serj Sarkisyanın hədsiz sırtıq və abırsız bəyanatını Sizə və dünyaya təqdim edirəm: "Biz erməninin uşaqları doğraya bilmədiyi haqda stereotipi sındırdıq".




Göründüyü kimi, Ermənistana belə hərbi canilər, kriminal aləmin təmsilçiləri rəhbərlik ediblər. Ermənistanın hazırda düşdüyü rəzil durumun səbəbkarları da məhz bu canilərdir. Onlar Ermənistan dövlətinin təməlini terror və cinayət üzərində qurublar.

44 günlük müharibə dövründə Ermənistan Azərbaycanın döyüş zonasından uzaq məsafədə yerləşən, əhalinin sıx məskunlaşdığı ərazilərində mülki şəxslərə və mülki infrastrukturlara qadağan olunmuş silahlardan istifadə etməklə hücumlar edərək, çoxsaylı insan tələfatına səbəb olub, nəticədə 12-si uşaq olmaqla, 94 mülki şəxs həlak olub və 54-ü uşaq olmaqla, 414 mülki şəxs yaralanıb, 4 uşaq hər iki valideynini itirib. Bütün bunlar Ermənistanın hazırkı hərbi-siyasi rəhbərliyi tərəfindən Cenevrə konvensiyaları və onların Əlavə protokollarının, xüsusilə "Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında" IV Cenevrə Konvensiyasının, "Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" Haaqa Konvensiyasının, "Uşaq hüquqları haqqında" Konvensiyanın və insan hüquqları sahəsində digər beynəlxalq sənədlərin müddəalarının kobud şəkildə pozulması faktı kimi qiymətləndirilməli və müvafiq sanksiyalar tətbiq edilməlidir, həmçinin qatillər cəzalandırılmalıdır. Buna baxmayaraq, Ermənistan tərəfi bu günə qədər münaqişə barədə saxta xəbərlər yaymaqla dünya ictimaiyyətini çaşdırmaq cəhdlərini davam etdirir və bu yanaşma münaqişədən sonrakı sülh quruculuğu prosesini sarsıdır.

Bu gün Azərbaycan Ordusu Ermənistanı təkcə diz çökdürmədi, həm də uzun illər Ermənistana rəhbərlik etmiş, torpaqlarımızı işğal etmiş, Azərbaycan xalqına qarşı Xocalı soyqırımını törətmiş cəlladlara, cinayətkarlara, uşaq qatillərinə - Koçaryana və Sarkisyana da dərs verdi, onların ordusunu məhv etdi. Prezident İlham Əliyevin qətiyyətindən, əzmindən, şanlı Azərbaycan Ordusunun gücündən qorxan Köçəryan və Sarkisyan bir dəfə də olsun Qarabağ ərazisinə keçə bilmədilər, qaçdılar. Döşlərinə taxdıqları saxta "qəhrəman" ordenləri belə köməklərinə gələ bilmədi. Terrorçu, cani Koçaryan, Sarkisyan tarixboyu lənətlənəcək, onların adları hərbi cinayətkar kimi xatırlanacaq.

***Sevinc Azadi***

## Oğrubaşı oğru axtarışında...



Ermənistanda belə bir müxalifət partiyası var - "Maariflənmiş Ermənistan". O gün danışmağa rəvac verən həmən partiyanın lideri Edmon Marukyan Ermənistanın siyasi sahəsini qapalı bir zəncirə bənzədib. Onun fikincə, bu zəncirin əlaqələri keçmiş prezidentlər Levon Ter-Petrosyan, Robert Koçaryan və Serj Sarkisyandır. Maraqlıdır ki, Marukyanın iddiasına görə, hadisələr bu əlaqələr ətrafında cərəyan etdikcə, hazırkı baş nazir Paşinyan hələ də hakimiyyətdə qalacaq. SİA erməni mətbuatına istinad edərək bildirir.

Qayıdaq Manukyana. Marukyana görə, keçmiş prezidentlər ambisiyalarından imtina edərlərsə, cəmiyyət fobiyalardan qurtulacaq və Paşinyana yeganə alternativ olmadıqlarını başa düşəcəklər. Əslində, bütün bunlar keçmiş rejimin nümayəndələrinə getdikcə daha çox yeni sualların fonunda baş verir. Məsələn, Paşinyanı korrupsiyada ittiham edib "halalıqdan danışan" Serj Sarkisyana sual olunur: niyə Qarabağ ərazisinə daxil olmayan yeddi Azərbaycan rayonunun "inkişafı" ilə bağlı diaspordan cırpışdırdığınız pulların taleyi barədə danışmırsınız. Belə çıxır ki, oğrunun böyüyü elə sizsiniz. Bundan əlavə, bu ərazilərdə hidroelektrik stansiyalarının inşası layihələrinin icrası üçün yüz milyonlarla dollar dəyərində kreditlərin alınması üçün bütün sənədlərin altında sənin imzan dayanır, Serjik. Məhz elə buna görə, oğrunun kənarda oğru axtarması adama gülməli gəlir.

***Ağasəf Babayev***

## "Nar" "Əlilliyi olan şəxslərin məşğulluğu" ilə bağlı keçirilən tədbirdə öz təcrübəsini paylaşıb



18 fevral 2021-ci il tarixində dövlət və özəl müəssisələrin iştirakı ilə "Əlilliyi olan şəxslərin məşğulluğu: İşəgötürənlərin təcrübəsi" adlı virtual dairəvi masa keçirilib. Tədbir Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin maliyyə dəstəyi ilə BMT-nin İnkişaf Proqramı (UNDP) və BMT-nin Əhali Fondu (UNFPA) tərəfindən icra edilən "Əlilliyi olan Qadınların və Dağlıq Qarabağ Müharibəsi Veteranlarının Hüquqlarının və Rifahının Təmin Edilməsi" layihəsi çərçivəsində baş tutub. Əsas KSM istiqamətlərindən biri də fiziki məhdudiyyətli şəxslərin cəmiyyətə inteqrasiyası olan "Nar" onlayn tədbir zamanı bu sahə üzrə mövcud təcrübəsini bölüşüb. Mobil operator tərəfindən həyata keçirilən "Təlim məktəbi" layihəsi çərçivəsində paytaxt və regionlardan olan 150-dək fiziki məhdudiyyətli şəxs peşə təlimlərini başa vurmuşdur.

Qeyd edək ki, tədbirin əsas məqsədi əlilliyi olan şəxslərin məşğulluğunun dəstəklənməsi və bu barədə məlumatlılığın artırılması üçün ölkədə özəl və dövlət müəssisələri arasında qabaqcıl təcrübə paylaşımını təmin etmək olub.

# DİN-dən AÇIQLAMA
## Obyektlərə daxil olan polis necə davranmalıdır?

**Son zamanlar polis əməkdaşlarının hər hansı qapalı məkana və ya ictimai iaşə obyektinə daxil olarkən aqressiv davranması və vətəndaşlara təzyiq göstərməsi ilə bağlı bir sıra videolar yayılır. Sonradan görürük ki, vəzifəsindən sui-istifadə edən həmin əməkdaşların bəziləri işindən azad olunur. Maraqlıdır ki, bəs polis əməkdaşı obyektə daxil olarkən özünü necə aparmalı və təqdim etməlidir?**




SİA-nın məlumatına görə, bu suala Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov cavab verib. O, polis əməkdaşlarının rəftar qaydasını belə izah edib: "Polis əməkdaşı obyektə daxil olduqdan sonra özünü təqdim etməli, daha sonra Nazirlər Kabinetinin qərarlarının icrası ilə bağlı nəzarət qaydasında məkana baxmalı və hər hansı bir qayda pozuntusu varsa, onu qeydə almalıdır. Yekun olaraq isə protokol yazıb təqdim etməlidir. Vətəndaş hər hansı bir polis əməkdaşının tələbinə tabe olmaz və özünü təqdim etməzsə, bu halda həmin şəxs bölməyə də aparıla bilər. Polis bölməsində isə onun şəxsiyyəti müəyyən edilir.

Polis əməkdaşı mülki formada obyektə daxil olursa, öz vəsiqəsini təqdim etməlidir. Ancaq xidməti geyimdə daxil olursa, bu zaman ehtiyac yaranmaz. Polis əməkdaşları xüsusi karantin rejimi ilə əlaqədar qapalı məkanlara girə bilər. Bu, onun vəzifəsidir və heç bir qayda pozuntusu yoxdur. Vətəndaş səbirsiz davranış formasını göstərirsə, polis onu sakitləşdirməlidir. Əgər qanuna tabe olmursa, polisə qarşı müqavimət göstərirsə, həmin şəxs bölməyə aparılır və barəsində qanuna müvafiq sənədləşmə işləri aparılır".

## Müraciətlər artıb, vaksinasiya sürətlə gedir

**Bakının Qaradağ rayonundakı 17 nömrəli Birləşmiş Şəhər Xəstəxanasında əhalinin vaksinasiyası getdikcə daha kütləvi hal alır. Vaksinasiyanın ilk günlərinə nisbətən indi müraciətlər xeyli artıb. Bu barədə xəstəxananın baş həkimi Elmira Rəfailova AZƏRTAC-ın müxbirinə deyib: "Görünür, bu həm də həkim və tibb işçilərimizin peyvəndin üstünlükləri və faydası barədə əhali arasında apardığı məlumatlandırma işlərinin nəticəsidir.**

Peyvənd vurulması üçün ümumilikdə 8, o cümlədən 1 qeydiyyat, 1 gözləmə, 3 peyvənd, 1 müşahidə, 1 təxirəsalınmaz tibbi yardım və 1 kompüter otağı ayrılıb. Həmçinin bu mühüm tədbirin aparılması üçün hərəsində 2 həkim və 4 tibb işçisi olmaqla iki növbədə işləyirik. Buna baxmayaraq, son günlər müraciətlər artdığından peyvəndləmə işinə bəzən əlavə işçi qüvvəsi də cəlb etmək lazım gəlir. Xəstəxanamızda 578 nəfər yaşı 65-dən yuxarı olan vətəndaş peyvənd olunmalıdır. İndiyə qədər onların 96 nəfəri vaksinasiyadan keçib".

Baş həkim prosedurun gedişi barədə də ətraflı məlumat verib: "Peyvənd vurdurmaq istəyənlər sayta daxil olaraq, "COVID-19 vaksin randevu" elektron xidmətindən istifadə etməklə koronavirus xəstəliyi əleyhinə vaksinasiya üçün onlayn qaydada növbə götürməlidirlər. Bunun üçün "COVID-19 vaksin randevu" elektron xidmətində vətəndaş ilk olaraq şəxsiyyət vəsiqəsinin seriya nömrəsini və FİN kodunu daxil edib "Yoxla" düyməsinə basmalıdır. Bundan sonra, vətəndaşlar təqdim olunan siyahıdan peyvənd məntəqəsini, randevu tarixini və saatını seçib, mobil nömrəsini daxil etməlidirlər. Qeydiyyat başa çatdıqdan sonra daxil edilən mobil nömrəyə növbənin qeydə alınması ilə bağlı mesaj göndərilir. Mesajda birinci dozanın vurulacağı tarix, saat və məkan qeyd edilir. Xəstəxananın giriş qapısında peyvənd vurdurmağa gələnlərin temperaturları ölçülür, əllərinə dezinfeksiyaedici spirt məhlulu vurulur və bundan sonra onlar xüsusi qeydiyyat otağına yönəldilirlər. Peyvənd vurdurmaq üçün gələn sakinlərin ambulator kartı götürüldükdən sonra onlar həkimin müayinə otağına göndərilirlər".

Fevralın 17-dən isə 50 yaşdan yuxarı vətəndaşların vaksinasiyası aparılır. Baş həkimin verdiyi məlumata görə, həmin kateqoriyaya daxil olan sakinlərin vaksinasiyası daha mütəşəkkil qaydada aparılır: "İlk gündə 115 nəfərə peyvənd vurulub. Bu günün birinci yarısında isə yaşı 50-dən yuxarı olan 56 nəfər vaksinasiya edilib. Onu da qeyd edim ki, həkimlərimiz sakinləri inyeksiya etməklə işlərini bitmiş hesab etmirlər. Peyvənd vurulandan sonra da sahə həkimləri onlara zəng edir, evlərinə baş çəkir, özlərini necə hiss etdikləri ilə maraqlanırlar. Nəticələr göstərir ki, Çinin "Sinovac" şirkətinin "CoronaVAC" vaksininin təsiri yaxşıdır, şikayətlər isə yox dərəcəsindədir".

Xəstəxananın baş həkimi daha sonra deyib: "Bu kampaniyalarla eyni vaxtda ikinci dozanın vurulması işləri də aparılır. Həkim və tibb işçilərindən 17 nəfəri artıq peyvəndin ikinci dozasını vurdurub".

# Azərbaycan bazarında ən ucuz 10 avtomobil

**Azərbaycanda avtomobil bazarı düşünüləndən, zənn ediləndən də daha rəngarəngdir desək, yanılmarıq. İstər MDB, istərsə də Avropa, Asiya və ABŞ avtomobilləri ilə ölkəmizin avtomobil bazarı çox zəngindir. Yeni, daha müasir, ən son texnologiya, ən müasir avadanlıqlarla təc-**




**hiz edilmiş avtomobillərlə, eləcə də, hibrid avtomobillərlə, həmçinin elektromobillərlə yanaşı, Azərbaycanda hələ də ötən əsrin sonlarında buraxılan avtomobillər, hətta, həmin dövrlərin Sovet istehsalı olan avtomobillər də satışa çıxarılır.**

Heç şübhəsiz ki, avtomobillər bir-birindən markaları ilə yanaşı, qiymətləri ilə də fərqlənirlər. Ölkənin avtomobil bazarında ən bahalı avtomobillərlə yanaşı, ən ucuz avtomobillər də diqqəti cəlb edir. Hətta avtomobilə tələbatı olan müştərilər də alıcılıq qabiliyyətinə görə avtomobillərə fərqli yanaşırlar. Müştərilərin bəzilərini qiyməti daha ucuz olan avtomobillər maraqlandırır. Məhz bu səbəbdən ölkəmizin avtomobil bazarında ən ucuz avtomobillər barədə araşdırma edərək, ən ucuz avtomobillərin top onluğunu tərtib etdik və ən ucuz ilk on avtomobili oxucuların diqqətinə çatdırırıq.

Azərbaycanın avtomobil bazarında ən ucuz avtomobillərin ilk beşliyində birinci yerdə "Moskviç 412" modeli qərarlaşıb. Bu, ikinci əl avtomobilin qiyməti buraxılış ilindən, tex-



niki vəziyyətindən və digər göstəricilərindən asılı olaraq, 1500 manata qədər dəyişir. Əlbəttə ki, bu avtomobillər köhnəlmiş avtomobillərdir, mühərriki ilə yanaşı, digər detalları da təzə vəziyyətdə deyil və heç şübhəsiz ki, bu avtomobilləri satanlar da, onlara sahib olmaq istəyənlər də alqı-satqı zamanı bütün bunları nəzərə alırlar. Bu baxımdan, avtomobil ölkənin avtomobil bazarında ən ucuz qiymətə təklif olunur.

Ölkənin avtomobil bazarında ən ucuz avtomobillər arasında ikinci yerdə "Lada" avtomobilləri dayanır. İkinci əl avtomobillər arasında Lada avtomobillərinin də qiyməti təzə



vəziyyətdə olanların qiymətlərindən dəfələrlə aşağıdır. Belə köhnə Lada avtomobillər 1300 manatdan başlayan qiymətlərlə təklif olunur avtomobil almaq istəyənlərə. Sözsüz ki, bu avtomobillərin də qiymətləri buraxılış ili, mühərrikinin texniki vəziyyəti, avtomobilin başqa detallarının vəziyyətindən asılı olaraq bir-birindən fərqlənir.

Ən ucuz avtomobillərin top onluğunda üçüncü yer "Opel Vectra" avtomobilinə məxsusdur. Bu avtomobillər də buraxılış ilindən, texniki vəziyyətindən və digər parametrlərindən asılı olaraq 1800 manatdan başlayan qiymətlərlə satışa çıxarılıb. Şübhəsiz ki, bu avtomobillərin belə aşağı qiymətə



satılması onların köhnə olması, eləcə də vəziyyətində olan köklü dəyişikliklərlə əlaqədardır.

Top onluğa daxil olan ən ucuz avtomobillər arasında dördüncü yerdə "Daewoo Lanos" avtomobili dayanır. İkinci əl avtomobil bazarında bu avtomobillər 2000 manatdan baş-



layan qiymətlərə satılır. İşlənmiş Daewoo Lanos avtomobilləri təzədən fərqləndiyi, mühərriki və digər detalları köhnə olduğu üçün beləcə dəfələrlə ucuz satışa çıxarılır.

Köhnə, işlənmiş, ikinci əl avtomobillər arasında ən ucuz avtomobillərdən biri də "Hyunday Sonata" avtomobilidir. Bu



avtomobil ən ucuz avtomobillər sırasında beşinci yerdədir. Köhnə Hyunday Sonata avtomobillərinin qiyməti təzəsindən dəfələrlə aşağı olmaqla 2300 manatdan başlayır.

İkinci əl və işlənmiş avtomobillər arasında "Renault 12 Toros" avtomobili altıncı yerdə qərarlaşıb. Uzun müddət is-



tifadə olunan bu avtomobillər ölkənin avtomobil bazarında 2500 manatdan başlayan qiymətlərlə müştərilərə təklif olunur.

Ucuz avtomobillərin top onluğunda "Volkswagen Golf" avtomobili yeddinci yerdədir. Təzələrindən fərqli olaraq, bu



avtomobillərin buraxılış ilinə görə köhnə olanları 2800 manatdan başlayan qiymətlərlə bazara çıxarılır.

"Ford Scorpio" avtomobili ölkənin ucuz avtomobillərinin top onluğunda səkkizinci yerdədir. Bu ikinci əl avtomobili buraxılış ilinə, köhnə olmasına, mühərrikinin vəziyyətinə və



digər parametrlərinə görə çox aşağı, 3100 manatdan başlayan qiymətlərlə alqı-satqı edilir.

Avtomobil bazarında ən ucuz avtomobillərin ilk onluğunda doqquzuncu yerdə olan avtomobil "Mercedes 190" hesab



olunur. Ən son model, yeni buraxılış Mercedes avtomobillərindən dəfələrlə aşağı qiymətə təklif olunan bu avtomobilin qiyməti 3600 manatdan başlayır.

Nəhayət, top onluqda ucuzluğuna görə sonuncu, onuncu



yerdə duran "Peugeot 406" avtomobilidir. Buraxılış ilinə görə köhnə hesab olunan bu avtomobillər 3800 manatdan başlayan qiymətlərlə avtomobil əldə etmək istəyənlərə təklif olunur.

Göründüyü kimi, ölkəmizin avtomobil bazarında ən ucuz, işlənmiş, ikinci əl avtomobillərin dəyəri 4000 manata qədər qiymət intervalında dəyişir. Qeyd edək ki, avtomobilin buraxılış ilindən, saxlanmasından, qulluq edilməsindən, texniki xidmətindən, mühərrikinin, eləcə də digər detallarının vəziyyətindən asılı olaraq qiymətlər bir-birindən fərqlənir və bu, tam təbii olaraq başadüşüləndir. Heç şübhəsiz ki, digər əmlak bazarları kimi, avtomobil bazarında da qiymətlərin, eləcə də sıralamanın mütəmadi olaraq dəyişə biləcəyi tamamilə gözləniləndir. Elə bu səbəbdən də ucuz avtomobillərin qiymətlərində, top onluqda sıralamasında dəyişikliklərin olması da mümkündür. Amma əlbəttə ki, nisbətən sağlam, daha baxımlı, qulluq edilmiş, tələblərə cavab verə bilən avtomobillər öz dəyərini hər zaman qorumaqdadır.

Hər bir halda avtomobil həvəskarlarına, daha dəqiq desək, avtomobil sahibi olmaq istəyənlərə sağlam, baxımlı, işlək və problemsiz avtomobillərə sahib olmağı arzulayırıq.

***İnam Hacıyev***

# "Əldə olunan qələbə iqtisadiyyatda yeni inkişaf perspektivləri müəyyən edir"



**"Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında",-deyən Prezidentimiz İlham Əliyevin bu gün əldə etdiyi qələbələr bir daha Onun Ali Baş Komandan kimi nəyi, nə vaxt və necə etmək lazım olduğunun sübutudur. Bu gün İlham Əliyev müstəqil Azərbaycanı güclü, sabit bir məkan çevirərək tarixə qələbələr yazdı". Bu fikirləri SİA-ya açıqlamasında YAP Səbail rayon təşkilatının Qadınlar Şurasının sədri Təranə Kərimova deyib.**

"Əsas amil də məhz xalqımızın ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilən Heydər Əliyev ideyalarına olan sonsuz sədaqətidir. Məhz elə buna görədir ki, 17 il əvvəl "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam" məramı ilə Prezident İlham Əliyevin həyatı xalqına və Vətəninə həsr olunmuş əsl lider ömrüdür. Cənab İlham Əliyev Ulu Öndərimizin "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" fikirlərini reallığa çevirərək bir daha isbat etdi ki, O, məhz Vətəninin, xalqının rifahı üçün yaşayan LİDERDİR", - deyən Təranə Kərimova bildirib ki, bu gün qazanılan qələbələrin Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin milli maraqlarımıza söykənən müstəqil siyasətinin, beynəlxalq arenada yüksək nüfuzunun, Güclü Ordumuzun, rəşadətli əsgərlərimizin və xalqın birliyinin məntiqi nəticəsidir.

Qadınlar Şurasının sədri qeyd edib ki, güclü ideyanı müdafiə edən xalq da güclüdür: "Bu gün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyvin rəhbərliyi ilə rəşadətli Azərbaycan əsgəri döyüşlərdə göstərdiyi çücaəti, Ordumuzun gücü ilə Azərbaycan tarixinə qələbələr yazdı. Torpaqlarımızın işğaldan azad edilməsi ədalətin təntənəsi, eyni zamanda hər bir azərbaycanlı üçün qürur mənbəyi oldu. Azərbaycan gücün və qüdrətin, xalq-iqtidar birliyinin, həmrəyliyin, milli iradə və əzmkarlığın sayəsində özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etdi, şəhidlərimizin qisasını aldı. Prezident İlham Əliyev rəşadətli Ordumuzun Ermənistana qarşı apardığı "Dəmir yumruq" əks-həmlə hərbi əməliyyatında - Vətən müharibəsində Qələbəmizi belə qiymətləndirib: "Azərbaycan tarixdə heç vaxt belə parlaq Zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində dəmir yumruqla düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etmişik".

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli Sərəncamı Milli Prioritetlər Qarabağın dirçəliş prosesini daha da sürətləndirəcək", - deyən T.Kərimova onu da söyləyib ki, Milli Prioritetlər Qarabağın dirçəliş prosesini daha da sürətləndirəcək və Qarabağımız ən yaxın illərdə gülüstana çevriləcək: "Elə bu günlərdə - fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfər edən dövlətimizin başçısı bu rayonlarda yeni layihələrin təməlini qoymaqla azad olunan torpaqlarımızı yeni həyat, yeni nəfəs gətirir. Dövlətimizin başçısı bildirib ki, artıq kəndlərin də bərpasına başlanılır. "Ağıllı kənd" konsepsiyası əsasında qurulması nəzərdə tutulan Zəngilan rayonunun dağıdılmış İkinci Ağalı kəndin bərpası, Laçının Güləbird kəndində qısa müddətdə bərpa edilən və açılışı keçirilən 8 meqavatlıq Güləbird Su Elektrik Stansiyasının açılışı, "Yaşıl enerji" zonası layihəsi, Azərbaycanı Naxçıvanla birləşdirəcək ən böyük layihə - Horadiz-Ağbənd dəmir yolu və bu kimi işlər Azərbaycan Prezidentinin, dövlətimizin gücünü və qüdrətini nümayiş etdirir. Bir sözlə, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Azərbaycanın davamlı yüksəlişinə böyük töhfələr verəcək. Milli prioritetlərin reallaşması həm də milli birliyimizin daha bir təntənəsi kimi öz təzahürlərini tapacaq. Milli Prioritetlər Qarabağın dirçəliş prosesini daha da sürətləndirəcək və Qarabağımız ən yaxın illərdə gülüstana çevriləcək".

***R.KAMALQIZI***

# YAP Qobustan rayon təşkilatında "Şəhid ailələrinə yardım" aksiyası davam edir

**Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatının üzvləri şəhid və qazilərin ailələrini daim diqqətdə saxlayır. Rayon təşkilatının rəhbərliyi, YAP fəalları müxtəlif aksiyalar formasında şəhid ailələrini və qaziləri ziyarət edir, onların problemlərinin həllinə yardımçı olur, dəstəyini göstərir.**



YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev və rayon təşkilatının üzvləri növbəti dəfə rayonun Cəmcəmli kəndində yaşayan Vətən müharibəsi qazilərindən Qorxmaz Aburəşidov Tələt oğluna və Röyal Əmirov Saleh oğluna baş çəkiblər. Dövlətin bu sahədə həyata keçirdiyi işlər barədə məlumat veriblər, ailələrinə köməklik və maddi yardım ediblər. Vətən müharibəsində xalqımızın milli birliyi ilə əldə olunan qələbədə, Zəfər tarixinin yazılmasında qazilərimizin və şəhidlərimizin xüsusi payı olduğunu qeyd ediblər, onlara partiya üzvləri adından təşəkkürlərini çatdırıblar.

Qazilər də öz növbələrində Ali Baş Komandan İlham Əliyevə, Birinci Vitse-prezident Mehriban xanım Əliyevaya və YAP rəhbərliyinə təşəkkürlərini bildiriblər.

***R.HÜSEYNOVA***

# Separatçı ermənilərin rus dili oyunu və ya...

"Qarabağın erməni separatçıları rus dilini ikinci dövlət dili elan edən "islahat" keçirdilər. Elə ilk günlərdən dünyanın buna münasibəti heç bir formada təzahür etmədi, lakin Ermənistan ermənilərinin səsi dərhal çıxdı. Təbii ki, pisləyənlər oldu, bunu konyukturaçılıq sayanlar oldu, faktdan Rusiyaya qarşı öz kinini püskürmək üçün fürsət kimi istifadə edənlər oldu". Bunu SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin Baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.



Ekspertin sözlərinə görə, əksəriyyət təşkil edən erməni cəmiyyətinin reaksiyası isə mənasız bir təzahürə münasibət kimi özünü göstərdi: "Niyə? Qarabağda separatçıların özlərinə aid hesab etdikləri ərazilərdə bircə nəfər də olsa, etnik rusun yaşamadığı halda rus dilinin kimlər üçün dövlət dili elan edilməsi qeyri-ciddi görünür. Ermənistanın özü monoetnik ölkə kimi tanındığı halda hansısa başqa xarici dili paralel dövlət dili elan etməyin nə mənası var? Ağıllı dünya bilir ki, ermənilərin neçə illərdi bir ovuc yezidi kürdü çoxmillətli dövlətin əlaməti kimi sübut etmək siyasəti heç bir nəticə vermir".

A.Quliyev vurğulayıb ki, separatçıların dil oyunu Rusiyaya münasibətdə Ermənistan rəhbərliyinin səhvlərini uğursuz düzəltmək cəhdidir: "Rusiya bilir ki, fürsət düşən kimi 200 illik müttəfiqliyi Qərbə satanların bir-iki erməni uşağına rus dili öyrətməsi baş aldatmaqdır. Holokost abidəsi qoymaqla İsrailin də başını bunun kimi aldatmaq istəmişdilər. Axırı nə oldu? İsrail rəsmən Ermənistanı antisemit ölkələr siyahısına saldı".

***Aysel Məmmədova***

# YAP İsmayıllı rayon təşkilatının hesabat yığıncağı keçirilib

Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatının 2020-ci ildəki fəaliyyətinin yekunlarına həsr olunmuş videokonfrans formatında hesabat yığıncağı keçirilib. Hesabat yığıncağında YAP İsmayıllı rayon təşkilatının Şura üzvləri, ilk partiya təşkilat sədrləri, fəalları və Yeni Azərbaycan Partiyası İcra Katibliyinin məsul əməkdaşı Emil Abasov iştirak edib.




İclasda YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova çıxış edərək qeyd edib ki, rayon təşkilatı 2020-ci il ərzində Yeni Azərbaycan Partiyasının Proqram və Nizamnaməsi əsasında fəaliyyət göstərərək işini rayon təşkilatının iş planına, YAP Mərkəzi Aparatının təlimat və göstərişlərinə uyğun qurduğunu bildirib.

Həmçinin YAP İsmayıllı rayon təşkilatının 2021-ci ilin I yarımilliyi üzrə Fəaliyyət Planını təqdim edən Sevil Əhmədova planın 27 bəndi əhatə edən 3 bölmədən - partiya təşkilat işi, ideoloji iş və tədbirlər bölmələrindən ibarət olduğunu bildirdi və keçirilməsi nəzərdə tutulan tədbirlər barədə danışıb.

Çıxış edən YAP İcra Katibliyinin məsul əməkdaşı Emil Abasov vurğulayıb ki, həm Milli Məclisə keçirilən seçkilər zamanı, həm pandemiya dövründə, həm də Vətən müharibəsi vaxtı rayon təşkilatının həyata keçirdiyi tədbirlər təqdirəlayiqdir. Qarşıda duran məsələlərdən danışan E.Abasov qeyd edib ki, rayon təşkilatı 2021-ci ildə öz fəaliyyətini daha da aktivləşdirməli, partiyamızın Sədri, ölkə Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən həyata keçirilən tədbirlərin rayon sakinləri arasında geniş təbliğ olunmasını təmin etməli, sosial şəbəkələrdə fəallığı daha da gücləndirməlidir.

Daha sonra müzakirələr aparılıb. Çıxış edən YAP İsmayıllı rayon təşkilatı qadınlar şurasının sədri Xuraman Qurbanova, YAP İsmayıllı rayon təşkilatının gənclər birliyinin sədri Ariz Həsənov və rayon təşkilatının sədr müavinləri Zaur Muradov, Taleh Salehov, Şura üzvləri Hafiz Kərimov, Novruz Əsədov görülən işlərdən danışıb, rayon təşkilatının üzvlərinin rayondakı ictimai-siyasi proseslərdə öz fəallıqları ilə fərqləndiklərini qeyd edib və 2020-ci ildə rayon təşkilatının fəaliyyətinin qənaətbəxş qiymətləndiriblər.

Yığıncaqda hesabat məruzəsi və Fəaliyyət Planı qəbul edilib, YAP İsmayıllı rayon təşkilatının 2020-ci ildəki fəaliyyəti qənaətbəxş hesab olunub

***Zümrüd BAYRAMOVA***

# Almaniya daha 7 azərbaycanlını deportasiya edir

Daha 7 azərbaycanlı Almaniyadan deportasiya ediləcək. SİA-nın verdiyi məlumata görə, bu barədə Berlin və Köln şəhər idarə məhkəmələri müvafiq qərarlar veriblər. Deportasiya qərarları Almaniyada adı müxtəlif cinayət hadisələrinə qarışan 24 nəfərə şamil edilib. Onların arasında Rusiya, Türkiyə və Azərbaycan vətəndaşı olan 7 azərbaycanlı da var.

Onlar 2014-2020-ci illərdə Almaniyada soyğunçuluq, qəsdən adam yaralama, polisə müqavimət və onları yaralama maddələri ilə saxlanılan və həbs edilən şəxslərdir. Məlumatda bildirilir ki, həmin şəxslərin vətəndaşı olduqları ölkələrə deportasiyası üçün danışıqlar aparılır. Almaniyanın Federal Kriminal İdarəsindən bildirilib ki, 2020-ci ilin yanvar-sentyabr aylarında əcnəbilərin iştirakı ilə ümumilikdə 188 699 cinayət hadisəsi qeydə alınıb. İstintaq və məhkəmə araşdırmaları zamanı onların bir çoxunun cinayət işi ilə əlaqəsinin olmadığı üzə çıxıb

# Anti-milli ünsürlərlə haqq-hesab çox ağır olacaq



**Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədovun "Milli Şura" ilə bağlı dediyi fikirlər məni yaman tutdu. Çünki bu mənəviyyatsızların toplaşdığı bu ölü qurum, Ə.Əhmədovun dediyi kimi, bu ada nəzər salmaq kifayətdir ki, onun sözün əsl mənasında, antimilli şura olduğuna əminlik yaransın: "Özünə şərəfli bir ifadədən istifadə edərək ad qoymuş "Milli Şura"nın nə millət, nə də xalq anlayışları ilə hər hansı əlaqəsinin olmadığını Azərbaycanda uşaq da bilir.**

Şübhəli və qaranlıq niyyətlərini gizlətmək üçün "xalq", "millət" anlayışlarının bəzi partiyalar və hərəkatlar tərəfindən konspirativ element kimi istifadə edilməsi tarixdən yaxşı məlumdur. 2013-cü il prezident seçkiləri ərəfəsində müxtəlif adlarla meydana gələn və nəhayət, "Milli Şura" adını qəbul edən qruplaşmanın Azərbaycanın milli maraqlarından qaynaqlandığını düşünmək siyasi sadəlövhlükdən başqa bir şey deyil. Sadəcə olaraq, həmin qruplaşmanın Azərbaycanın siyasi sisteminə uyğunlaşdırılması məqsədilə onun xalqda rəğbət yarada biləcək ad altında təqdimatı kimi konspirativ metoddan istifadə edildi. Nəticə etibarilə "Milli Şura" adlanan, əslində millət və xalq anlayışları heç bir əlaqəsi olmayan pozucu, mahiyyətcə isə antimilli qruplaşma yaranmış oldu. Buna görə də onun "Milli Şura" deyil, "antimilli şura" adlandırılması daha doğru və ədalətli olar".

Əgər bu reallığı anlaya bilsəydilər. Anlasaydılar 7-8 il belə cinayətkar yol getməzdilər və bundan sonra da bu reallığı anlamayacaqlar. Çünki onların mayası Azərbaycanın reallıqlarını təhrif etmək, onun imicinə ləkə yaxmaq, anti-Azərbaycan təbliğatı aparmaq olub. "Milli şura"da toplananlar həmin bədniyyət və bəduğurların qalıqlarıdır. Və...

## Cəmil Həsənli kimilər "insan" ola bilməz

Bəli, 28 ildir ki, "müxalifət" adı ilə yol gedənlər bu gün sosial söyüş müxalifəti olmaqları ilə dövlətə, xalqa, Azərbaycanın uğurlu inkişafına, dünya da belə bir qələbənin əldə olunması mümkün olmadığı halda Azərbaycan 30 il ərzində mənfur erməni təcavüzkarlarının 44 gün ərzində ərazi bütövlüyünün, ədalətin bərpa olunmasına nail olaraq tam Qələbə qazanaraq - Qarabağ Azərbaycanımıza qovuşmağımıza qara yaxan AXCP-"Milli Şura"nın erməni dəyirmanına su tökənlər elə zənn edirlər ki, bu əxlaqsızlıqları və böhtanları ilə xalqın dəstəyini bəlkə "qazandılar". Ancaq onların bu "arzusu" "qaşınmayan yerdən qan çıxarmağa" bənzəyir. Necə deyərlər: qaş düzəltdikləri yerdə vurub göz...kimi. Ay bədbəxt məxluq, məgər bilmirsiniz ki, 2003-cü ildən zibiliklərin "arxivinə" atılmısınız. Ən iyrənci isə odur ki, xalqımız, bütün türk dünyası ilə bərabər bir çox dünya dövlətləri əldə edilmiş, minlərlə şəhidin qanı bahasına qazanılmış qələbə sevincimizlə şərik olduqlarını və işğaldan azad olunan torpaqlarımızın bərpasında dəstək verəcəklərini bildirdikləri halda, erməni üfunəti verən AXCP-"Milli Şura" Ermənistanın iqtisadiyyatı ilə bağlı dediyi qeyr-obyektiv rəqəmləri eşitdikdə Əli Kərimlinin, Cəmil Həsənlinin, Gültəkin Hacıbəylinin, Leyla Yunusun nə qədər alçaq, mənəviyyatsız satqın olduğunun göstərir. Və adları deyilən bu satqınlar sosial şəbəkələrdə ardıcıl olaraq çıxışlar edərək böhtanlar deməkdən usanmır.

## Reallığı danmaq olmaz

Ancaq Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbıbəyli, Leyla Yunus, Xədicə İsmayıl, Qənimət Zahid, Sevinc Osmanqızı, Vidadi İsgəndərli... kimi mənfurlar ölkəmizin beynəlxalq aləmdəki artan nüfuzundan qaşınmaya düşərək beynəlxalq aləmdə haqqımızda mənfi rəy formalaşdırmaq üçün min bir fitnə-fəsada əl atır, ağlagəlməz yalanlar, böhtanlar uydururlar. "Sapı özümüzdən olan balta"lardan istifadə edən ermənilərə haqq qazandıran bu vicdanı olmayan ermənipərəst qüvvələrin çirkli pulları və anti-Azərbaycan qüvvələrin tula payı alan bu mənfurlara Azərbaycanın o çörəyi haram olsun! Az qalıb, xalq, qanun qarşısında cəza çəkməyinizə. Axı, bütün dünyaya bəllidir ki, Sevinc Osmanqızının atasını ermənilər vəhşicəsinə qətlə yetiriblər. İndi bu qəddar, faşist xislətli millət Sevinc Osmanqızına niyə bu qədər əziz olub? Nəyə əsaslanaraq milli maraqlar məsələsində ermənilərin yanında necə ola bilirsiniz? Məgər indiyədək ermənilərin soydaşlarımıza qarşı törətdikləri terror aktlarından, vəhşiliklərdən, işğal siyasətindən, yaxud, dünyanı lərzəyə salan Xocalı faciəsindən bixəbərsiniz? Əgər Avropanın mərkəzində, eləcə də Amerikada və digər ölkələrdə soydaşlarımız erməni vandalizminə, sərhədboyu ərazilərdə törətdikləri təxribatlara, günahsız hərbçilərin, mülki əhalinin, uşağın, ağsaqqalın, ağbirçəyin qətlə yetirilməsinə etiraz əlaməti olaraq dinc aksiya keçirilərsə, niyə ermənilərdən betər Vidadi İsgəndərli, Sevinc Osmanqızı, Arif Məmmədov... etiraz edirlər? Bu xəyanətkarlar ermənilərə və onların havadarlarına xoş görünmək və gündəlik yeməklərini artırmaq naminə bütün bunlarda Azərbaycan hakimiyyətini günahlandırır, "zavallı" ermənilərin heç bir günahı olmadığını iddia edirlər. Bu xəbis niyyətlərini sosial şəbəkələr vasitəsilə həyata keçirən satqınlara azərbaycanlı demək olarmı?

Bu gün dünya ictimaiyyəti, hətta, Ermənistan dövlətinin üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı da işğalçı ölkəni müdafiə etmədi və haqqın tərəfində dayanaraq Azərbaycanın haqlı olduğunu bildirdi. Ancaq satqınlar - vidadilər, sevinclər, ariflər... öz qan qardaşlarının - ermənilərin yanında olduqlarını açıq şəkildə bəyan etdilər. Artıq belə sosial şəbəkə dəllallarının qarşısının alınması üçün Azərbaycan xalqı, qanunu qarşısında tezliklə cavab verəcək və Azərbaycan xalqı belə satqınları heç vaxt bağışlamayacaq.

***Rəfiqə HÜSEYNOVA***

# Rəsul Quliyev radikalları "cırtdanlar" adlandırdı

*Eks-spiker xüsusilə AXCP sədrinə eyham vuraraq ona "cılız" və "nadan" damğasını yapışdırdı*



Sabiq spiker, hazırda ABŞ-da yaşayan Rəsul Quliyev hesab edir ki, Azərbaycan kimi kiçik bir ölkədə 50-dən çox müxalifət partiyasının olması anormaldır. Onun sözlərinə görə, özlərini "müxalifət lideri" adlandıran müxalifət partiya sədrləri xalq arasına çıxmaları yerinə internet arxasından "siyasət yürüdürlər". Bu isə, ümumiyyətlə, fəaliyyət göstərmək anlamını daşımır, əksinə, onların cılızlıqlarını daha çox qabardır. Belə ki, Azərbaycanın keçmiş sovet məkanında ən çox internetdən istifadə edən ölkələrdən biri olduğunu deyən eks-spiker əsasən bildirib ki, radikal ünsürlər Azərbaycanın Qarabağı işğaldan azad etməsinə qısqanclıqla yanaşırlar.

## "Mənim ölkənin şanlı qələbəsinə verdiyim qiyməti ucuzlaşdırmağa cəhd edən ünsürlər vardır"

"Çoxsaylı adı olan, özü olmayan cırtdan partiyaların sədrləri internet azadlığından istifadə edərək kimlərdənsə pul qopararaq sifarişlə yazılar yazır, faktiki olaraq qanmadan Azərbaycanın çaldığı şanlı qələbəsinə kölgə salmaq istəyirlər", bildirən Rəsul Quliyev söz yox ki, bu məsələdə əsas olaraq özlərini "ən böyük müxalifət partiyaları" hesab edən, lakin sıraları get-gedə daha da daralan AXCP və Müsavat kimi partiyaları nəzərdə tutub. Qarabağın işğaldan azad olunmasından sonra Əli Kərimlinin, Arif Hacılının və başqalarının özlərinə əl qataraq müxtəlif dəyərsiz ifadələrinə qarşı sərt fikirlər irəli sürən sabiq spiker həmçinin bildirib ki, bu qələbə onlar üçün gözlənilməz olub. "Əslində, hamı üçün, o cümlədən, özünü müxalifət adlandıran nadanlar üçün bu, gözlənilməz oldu. Mən demişdim, bir də təkrar edirəm: bu qələbə tək torpaqları azad etmək deyil, Azərbaycan öz müstəqilliyini təsdiq etdi. Mənim ölkənin şanlı qələbəsinə verdiyim qiyməti ucuzlaşdırmağa cəhd edən ünsürlər vardır", deyə o cəbhəçilərin və müsavatçıların "liderlərinə" eyham vurub.

## "Bu cılız insanlara yazığım gəlir"

Rəsul Quliyev radikal müxalifəti "liderlərinin" ondan qorxub-çəkindiklərini də dolayısı ilə ifadə edərək bildirib ki, indi həmin adamlar onu digər məsələyə görə ittiham edirlər. Yəni ABŞ-dan Azərbaycana geriyə qayıtmaq fikrində olduğu üçün, Azərbaycan dövlətinin atdığı qətiyyətli addımlarını dəstəklədiyini iddia edirlər. Ancaq eks-spiker heç də belə fikirdə olmadığını bildirib və deyib ki, onlar sifarişlə onun dediklərini ölkəyə qayıtmaq üçün hakimiyyətə tərif söyləməsi kimi təqdim edirlər: "Bu cılız insanlara yazığım gəlir. Azərbaycan Sovet məkanında öz torpaqlarını işğaldan azad etməyə nail olmuş yeganə ölkədir, sizlər bununla fəxr etməlisiniz, ay nadanlar. Mən Azərbaycana qayıtmağa heç bir cəhd göstərmədən Azərbaycanın bu tarixi qələbəsini hələ axıra qədər işıqlandırmamışam. Bu qələbə mənim üçün Azərbaycana qayıtmaq arzumdan 100 dəfələrlə önəmlidir. Cənab cırtdanlar".

Göründüyü kimi, vaxtilə ittiham etdiyi insanları indi nadan və cırtdan adlandırmaqla Rəsul Quliyev həm də keçmiş siyasi səhvlərini də etiraf etmiş olur və o da dərk edir ki, hətta ümummilli məsələlərdə belə kənara çəkilərək düşmən dəyirmanına su tökənlər nə qədər təhlükəli və xəyanətkar ünsürlərdirlər. Hər halda, eks-spikerin dağıdıcı müxalifət "liderlərinə" bu cür yanaşması, ittiham etməsi və həqiqətləri deməsi tədqirəlayiqdir...

***Rövşən RƏSULOV***

# Dağıdıcı müxalifətin örtülü pıqqıldayan qazanları...



**Başqalarına "ağıl" verən radikal müxalifətin beş-on nəfər "ağıllısı" bir-birləri ilə yola gedə bilmirlər. Təbii ki, hər zaman iddialı olan adamların bir araya gəlib birləşməyi heç vaxt mümkün ola bilməz. Bunu dağıdıcı müxalifət düşərgəsindəkilərin iyirmi səkkiz illik təcrübəsi də təsdiq edir.**

Bu günlərdə jurnalist Sevinc Osmanqızı öz efirindən səs-küy doğuracaq bir müəllif verilişi yayımlayıb. "Səni çökdürəcəyik! - Mənə hücumlar və mənim cavabım" adlı verilişində həyəcanlı şəkildə açıqlamalar verən xanım jurnalist onun özünə və kanalına qarşı aparılan hücum kampaniyasından gen-bol danışıb. Bildirib ki, bu günlərdə Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyevi və Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlunu efirə qonaq çağırdığı üçün müxalifdəki dostlarından ona hücumlar başlanıb. Həmin şəxslər S.Osmanqızını hədələyərək "bu kanala necə gəlmişdik, elə də gedəcəyik", "ancaq səni çökdürəcəyik" deyiblər.

Osmanqızı verilişində cavab verdiyi şəxslərin-etibarsız dostlarının adlarını çəkməsə də, aydın görünür ki, söhbət onun Azərbaycandakı tərəfdaşları AXCP sədri Əli Kərimli, antimilli şuranın təmsilçiləri, Gültəkin Hacıbəyli və onların tərəfdarlarından gedir. Veriliş zamanı bir çox tamaşaçılar da şərh hissəsinə məhz bu şəxslərin adlarını yazaraq, jurnalistə dəstək verdilər. Bu nəticəyə gəlməyə əsas verən səbəb isə odur ki, Əli Kərimli və tərəfdarları məhz Ə.Əliyev və M.Mirəlioğlu ilə kəskin ziddiyyətlər içərisindədirlər və bu kanalı da özlərinin şəxsi mülkiyyətləri hesab edirlər. Məhz özlərinin hesab etdikləri üçün S.Osmanqızına təzyiq edərək, arzulamadıqları şəxslər bu kanala qonaq olacağı halda Osmanqızı TV-sini boykot edəcəklərini və onu çökdürəcəklərini bildiriblər. Bu sözləri həzm etməyən müəllif "Sizdə kim elə təəssürat yaradıb ki, mənə "efirə onu çağır, bunu çağırma deyə bilərsiz" sualını israrla, xüsusi intonasiya ilə bir neçə dəfə təkrarlayan aparıcı ad çəkməsə də Ə.Kərimli cəbhəsi üçün etdiyi yaxşılıqlardan, yeni kərimçilərə hər zaman efir vaxtı ayırmasından, onlara yandırdığı "yaşıl işıqlardan" danışıb.

Yazının bu hissəsində aparıcı xanımın bəzi sitatlarını sizin nəzərinizə çatdırmaqla söhbətin kimdən getdiyinə əmin olmağınıza yardım edəcəyik: "Mən sizə daha çox xeyir vermişəm", "Öz ayağınıza güllə atmayın", "Budurmu sizi qonaq etməkdən sonra mənə qoyduğunuz hörmət?", "Kanala bir daha çıxmamaq qərarı verirsizsə, bu, sizin qərarınızdır."

Beləliklə, görünən budur ki, Azərbaycan müxalifətinin radikal qisminin Əli Kərimli cinahının ən böyük informasiya dəstəkçisi Sevinc Osmanqızı ilə Bakıdakı tərəf müqabillərinin arası əsaslı şəkildə dəyib. İş o yerə çatıb ki, kərimçilər və həsənçilər Sevinc Osmanqızına qarşı ciddi ittihamlar irəli sürüblər.

Ona görə də aparıcı xanım verilişinin sonunda tamaşaçılarına müraciət edərək onlardan yardım istəyib: "Sizə o scrınları göndərirlər ki, guya Sevinc Osmanqızı satqındır." Ancaq Sevinc xanım bu fikrin düz və ya səhv olduğunu deməyib. Nə desin axı?

***Vəli İlyasov***

# MK.RU yazır: Qarabağda nasist cinayətkarın abidəsi və dağıdılan rus kilsələri

**"Moskovskiy Komsomolets" qəzetində bir neçə gün əvvəl həmin qəzetin jurnalistinin Qarabağdan hazırladığı reportajın yalan üzərində qurulduğunu ortaya qoyan və erməni sakinin danışdığı cəfəngiyyatları faktlarla ifşa edən yazı dərc olunub. Həmin məqaləni oxucularımıza təqdim edirik.**

> Cinayətləri gizlətmək mümkün olmayacaq, çünki faktlar inadkar şeylərdir

## Cinayətləri gizlətmək mümkün olmayacaq

Farisizm - "Qarabağın Rus icmasının başçısı müharibədən sonrakı həyatı təsvir etdi" kimi iddialı başlıq altında məqalə dəqiq belə təsvir edilə bilər. Heç kimə sirr deyil ki, bu cür görüşlər və bu kimi məqalələr ən çox öz məqsədlərini və "münasibətlərini" təbliğ etmək üçün "yerli hakimiyyət orqanları" tərəfindən təşkil olunur.

Budur, özünü "Dağlıq Qarabağın rus icmasının rəhbəri" kimi təqdim edən Qalina Somova adlı şəxs "Moskovskiy Komsomolets" qəzetinin jurnalistinin həmsöhbətidir, lakin nüfuzlu bir Moskva nəşrində oxunacaq və eşidiləcək sözlərinin həqiqətdən nə qədər fərqləndiyi həqiqətən ona maraqlı deyil.

Q. Somova şikayət edir: yerli rusların Pravoslav Kilsəsi yoxdur. Və əlavə edir: "Yeri gəlmişkən, burada öz rus kilsəmizə sahib olmalı idik, lakin xəyallarımız hələ reallaşmadı. 2010-cu ildə kilsənin inşa ediləcəyi yerdə bir xaç da qoyuldu və təsdiq edildi. Hələlik, yalnız Rusiya sülhməramlı kontingentinin keşişi Baba Boris üçün ümid edə bilərik".

## Faşist cinayətkara heykəl üçün pul tapılır, rus kilsəsi üçün yox

İzah edək. Xatırladaq: yalnız bir gün əvvəl Qarabağda, Xocavənd şəhərində (erməni adı Martuni), nasist, hitlerçi Qaregin Njdeyə qoyulmuş abidənin açılışı oldu. Bu, nasistlərə Holokost qurbanlarından talan edilmiş qiymətli əşyaların, əsasən qızılın toplanmasına kömək edən həmin Njdedir. Fürerə xidmətinə görə Sovet məhkəməsinin hökmü ilə həbs düşərgələrində 25 il qaldı. İndi ona abidələr qoyulur. Sanki Hitlerə xidmət üçün deyil- "yalnız" azərbaycanlıların etnik təmizlənməsi üçün. Və bugünkü Ermənistan bu siyasəti tam olaraq təkrarlayır.

Bildirmək xoşagəlməzdir, ancaq bir neçə il əvvəl rus "ulduzlarının" iştirakı ilə Njde haqqında bir bioqrafik film də çəkildi. Əlbəttə ki, Hitlerə xidmətindən bir kəlmə də yoxdur, ancaq göstərici bir epizod var. Njde Zəngəzurda neçə azərbaycanlı kəndinin qaldığını bildirir və bundan sonra elan edir: "Bu kəndləri azad edəcəyik!".

Yalnız indi o, dinc yerli əhalidən "azad" olacaqdı. Və sonra müasir Ermənistanda Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı bölgələrini ələ keçirirlər, orada ümumiyyətlə, erməni əhalisi yox idi və sonra bu torpaqlara "azad edilmiş ərazilər" deyilir. Şadam ki, indi Ermənistanın özündə politoloqlar soruşurlar: biz onları kimdən azad etdik?

Bu kəndlərin bir düşmən tərəfindən ələ keçirildiyini düşünə bilərsiniz, ancaq qəhrəman-xilaskar Njde onları azad etməyə çalışır, amma yox - əslində, söhbət bu kəndlərin sakinlərinin bütün "günahı"nın yalnız dinc azərbaycanlı



olmasından gedir. Onlar yalnız erməni olaraq doğulmadıqları üçün Njde öz "Dağlıq Ermənistanı"nı yaratmağa başladı. Bu hərbi cinayətkarın artıq İrəvanın mərkəzində ucaldılmış abidəsi çox təmtəraqlı görünür. Rusiyada bir xatirə lövhəsi qoymağa cəhd göstərildi, ancaq Rusiya səlahiyyətliləri buna icazə vermədilər.

Beləliklə, bu pis qoxulu "abidə" üçün vəsait tapıldı, amma Pravoslav kilsəsi üçün yox. Şuşada "Qarabağ parlamenti"nin binası üçün pul da tapdılar. Yalnız Pravoslav kilsəsinə pul tapılmadı...

## Qarabağdakı rus kilsələrini kim dağıtdı?

Başqa bir şeyi də xatırlayaq. Erməni işğalından əvvəl Qarabağda pravoslav kilsələri var idi. Ancaq erməni işğalı zamanı onlara necə münasibət göstərildiyi maraqlı bir sualdır.

Qarabağın tarixi paytaxtı Şuşa şəhərində, 19-cu əsrdə Vəftizçi Müqəddəs Yəhya Rus Pravoslav Kilsəsi inşa edilmişdir. Bu kilsə bu şəhərin yerli sakinləri olan azərbaycanlıların Şuşada yaşadığı bütün illərdə uğurla mövcud olmuşdur: Rusiya İmperiyası dövründə, müstəqil Azərbaycan Xalq Cümhuriyyəti dövründə, Sovet Azərbaycanı dövründə və 1991-1992-ci illərdə Azərbaycanın müstəqilliyinin elan edilməsindən Şuşanın işğala qədərki dövründə.

Və Şuşanın yeni erməni "sahibləri" onunla nə etdi? Pravoslav günbəzi yıxıldı, kilsə erməni qaydası ilə yenidən tikildi və erməni kilsəsi elan edildi. Ancaq bu barədə Somova ilə olan reportajda bir söz yoxdur. Yalnız Şuşa və Hadrutdakı rus qəbiristanlıqlarının təhlükəsizliyindən nə qədər narahat olduğunu danışır.

Somova xanımı inandırmağa tələsirik: Azərbaycan mədəni bir ölkədir. Tarixi abidələrlə və daha da çox qəbiristanlıqdakı qəbirlərlə "vuruşmaq" niyyəti yoxdur. Erməni məzarları ilə bağlı hadisəyə gəlincə, on ikinci dəfə xatırlataq: Azərbaycan Baş Prokurorluğu bu məsələni araşdırır, bu görüntülərdə əsir götürülən hərbçilər həbs olunub. Bilmək maraqlıdır: Ermənistanda ən azı bir oxşar presedent varmı? Ermənistan vətəndaşlarından hər hansı biri müharibə cinayətlərinə, dağıdılmış və talan edilmiş muzeylərə, məscidlərə, bunları sözün əsl mənasında xarabalıqlara çevirdiklərinə görə cəzalandırıldımı?

Ancaq Hadrut və ətrafı haqqında ayrıca deyilməlidir. Burada, daha doğrusu, Hadrutun özündə deyil, yaxınlığında, Kuropatkino kəndində Rus Pravoslav Kilsəsi var idi. İndi isə o belə görünür (fotoya bax-red). Xeyr, bunlar müharibənin izləri deyil- erməni işğalçıları onu rahatca və bayağı şəkildə məhv etdilər.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

## Rus Sənəti Muzeyini kim dağıtdı?

Həm də divarlarında birmənalı şəkildə öz qrafitlərini qoydular. Erməni işğalı ilə yanaşı, siyasi texnologiyaların xoşagəlməz bir "ixracatı" da Qarabağa yönəldi. İrəvanın "Sputnik" in açıqca danışdığı şeylər: "Doxsanların əvvəllərində İsahakyan küçəsindəki 38 nömrəli evin divarından "Rus Sə-



nəti Muzeyi" lövhəsi qoparıldığı zaman, moskvalı professor Aram Abrahamyan tərəfindən İrəvana təqdim edilən digər şeylər arasında rəsm əsərləri də var idi. Onlarla çox kobudluqla davranıldı.

Yerevandakı milis alayının kazarmasına basqın edən quldurlar "Mübarizəmiz rus müstəmləkəçiliyinə qarşı yönəldilib, Rusiya telekanalları bağlanmalı, rus sərhədçiləri dərhal döyüş vəzifəsindən çıxarılmalı və Gümrüdəki hərbi baza çıxarılmalıdır" şüarları ilə səs-küy saldılar və sakitləşdilər.

Həm də Hitlerin şəriki Njde kultunun "ixracatı", nəzarət edilən ərazilərin "etnik cəhətdən təmiz" hala çevrilməsi, tarixi abidələrin məhv edilməsi. Dünya bütün bunları qalaları, məscidləri, xan sarayı da daxil olmaqla bütün tarixi binalarının buldozerlə üzləşdiyini İrəvanda artıq görmüşdü ... Sonra isə vəhşicəsinə dağıdılmış Qarabağda da eyni şey təkrarlandı: məscidlər və teatrlar, muzeylər və məktəblər, evlər və hətta qəbiristanlıqlar.

## Qarabağın azad edilməsi həqiqətləri üzə çıxardı

Bu cinayətlərin müəllifləri cəzasız qalacaqlarına əmin idilər. Şübhə etmirdilər ki, məhv edilmiş kilsələrin taleyi barədə heç kim məlumatlı olmayacaq. Və Rusiyanın dostu kimi görünməyə hər cür cəhd etdilər. Ancaq indi bu torpaqları Azərbaycan ordusu azad etdikdən sonra çoxları üçün əlverişsiz olan detallar və faktlar məlum olur. Üstəlik, böyük bir jurnalist qrupu indi azad edilmiş torpaqlara getdi. Deməli, erməni millətçiləri "qabaqda oynamağa" çalışırlar. Ancaq faktlar inadkar şeylərdir. Və heç bir farisizm onları ört-basdır edə bilməz.

***Müəllif - Fuad Axundov***
***Tərcümə - Elçin Bayramlı***

SƏS

QARABAĞ AZƏRBAYCANDIR!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

19 fevral

# Norveçli hücumçu Çempionlar Liqasının tarixində rekord edib



Futbol üzrə UEFA Çempionlar Liqasının səkkizdəbir final mərhələsi çərçivəsində keçirilən "Sevilya" - "Borussiya Dortmund" qarşılaşması Almaniya təmsilçisinin hücumçusu Erlinq Haaland üçün əlamətdar olub. Belə ki, norveçli futbolçu "Sevilya"nın qapısına iki dəfə yol tapmaqla Futbol üzrə UEFA Çempionlar Liqasında vurduğu qolların sayını 17-yə çatdırıb. Beləliklə, Erlinq Haaland 13 görüşdə 17 qol vurmağı bacaran ilk futbolçu kimi qitənin ən nüfuzlu klub turnirinin tarixinə düşüb.

Xatırladaq ki, "Borussiya Dortmund"un səfərdə 3:2 hesabı ilə qalib gəldiyi oyunda norveçli hücumçu 27-ci və 43-cü dəqiqələrdə fərqlənib.

# Buffon XXI əsrin ən yaxşı qapıçısı seçildi!



**İtaliyanın "Yuventus" futbol klubunun veteran futbolçusu Canluici Buffon XXI əsrin ən yaxşı qapıçısı elan edilib. Belə ki, müasir dövrün ən yaxşı qapıçılarının reytinqini Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (IFFHS) açıqlayıb.**

XXI əsrin ümumi reytinqi 2001 - 2020-ci illərdə dövrün illik reytinqlərinin uyğunlaşdırılması prinsipi üzrə təşkil edilib. Siyahıya "Top-20"yə düşmüş qapıçılar daxil olublar. İllik reytinqdə birinci yeri tutan qapıçıya 20 bal, ikinci yerə 19 bal, sonrakılara da eyni prinsip üzrə ballar verilib. Canluici Buffon reytinqdə birinci olub. "Real Madrid"in sabiq qapıçısı İker Kasilyas ikinci, "Çelsi"nin keçmiş qolkiperi Petr Çex isə üçüncü pillədə qərarlaşıblar.

# Bərdədə cibgir yaxalanıb

**Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, fevralın 16-da şəhər sakini M.Məmmədovun cibindən 680 manat məbləğində pul oğurlamaqda şübhəli bilinən şəhər sakini E.Hacıyev Bərdə Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb.**



Bərdə şəhər sakini M.Məmmədovun cibindən pul oğurlamaqda şübhəli bilinən E.Hacıyev saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, fevralın 16-da şəhər sakini M.Məmmədovun cibindən 680 manat məbləğində pul oğurlamaqda şübhəli bilinən şəhər sakini E.Hacıyev Bərdə Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb.

# Toy adətləri haqqında nələri bilirik?

## Ağ gəlin paltarı

1499-cu ildə britaniyalı Anna toya ağ rəngli gəlinlik libası geyməyi dəb saldı. Ondan əvvəl bütün gəlinlər toya yalnız ən gözəl paltarlarını geyirdilər və rəngin heç bir əhəmiyyəti yox idi.



## Duvağın yaranması

Əvvəllər dünyanın bir çox yerində gəlinlər üzlərinə parlaq rəngli örtüklər örtərdilər və belə fikirləşirdilər ki, bu örtük gəlini pis ruhlardan qoruyur. Yunan və Romalı gəlinlər şər ruhları və şeytanı qovmaq üçün sarı və qırmızı (od rəmzi) örtüklər örtərdilər. Hətta iş o yerə gəlibmiş ki, bir vaxtlar Romada hamı qırmızı örtüklə gəzirmiş. Avropa ölkələrində isə bəyin gəlini görə bilməməsi üçün bu örtükdən istifadə edirdilər. Nəinki bəy gəlini görə bilmirdi, heç gəlin özü belə bu örtükdən ətrafı görmürdü. Elə ona görə də atası gəlinin əlindən tutaraq onu bəyin yanına aparırdı. (İndi Avropa gəlinləri örtüklü olmasalar da atanın qızı ilə getməsi hələ də qalır)

## Nişan üzüyünün düzgün taxılması

Yunanıstanda nişan üzüyünün taxıldığı barmaq şəhadət barmaq idi. Hindistanda isə bu üzüyü baş barmağa taxırdılar. Bəzi Afrika ölkələrində üzüyü orta barmağa taxırdılar. Sonradan yunanların da təsiri ilə qərbdə üzüyü üçüncü barmağa taxmaq dəb halını aldı. Bu səbəb ilə üçüncü barmaq ürəyə daha yaxın hesab edilirmiş...

## Toy gülləri

Əvvəllər gəlinlər özləri saçlarını güllərlə bəzəyərdilər. Saça taxılan hər gülün öz mənası var idi. Toy bitəndən sonra gəlin və bəyə hər tərəfdən güllər atılırdı. Bu adət orta əsrlər dövründən qalıb.

## Brilliant nişan üzüyü

Kral Maksimilian çox sevdiyi Meriyə sevgisinin rəmzi kimi bahalı brilliant üzük bağışladıqdan sonra varlılar arasında toyda brilliant üzük vermək dəbə düşür. 15-ci əsrdə sevgililər şəhəri Venesiyada bu adət populyarlaşdı. Brilyant həm də ən möhkəm daşlardan olduğundan bu sevginin də sarsılmaz olacağına inamın işarəsidir.

## Niyə bəyin toydan əvvəl gəlini görməyi "Pis əlamət" sayılır?

Əvvəllər qız atasının mülkiyyəti hesab edilirdi və onu özünün razılığı olmadan ərə verirdilər. Onların gələcək ərini də atası seçirdi. Bəzən gözəl olmayan qızı görən bəy gələcək həyat yoldaşını bəyənməyib gəlini elə məbəddəcə qoyub oranı tərk edirdi. Bunun qarşısını almaq üçün toy mərasimlərinə daha bir adət əlavə olundu - bəy toydan əvvəl gəlini görməməlidir.

## Niyə bəy gəlinin sol tərəfində dayanır?

Cəngavərlər dövründən belə düşünürdülər ki, bəy həmişə ona görə gəlinin sol tərəfində dayanır ki, qəfil hücum olarsa bəy dərhal sağ əli ilə və ya qılıncı ilə onu qoruya bilsin

## Bal ayı

Bal ayı əsasən yəhudilərdə istifadə olunan bir söz kimi artıq bütün dünyaya tanınıb. Qeyd edək ki, yəhudi adətlərində bal ayı toy qonaqlığından sonra gəlin və bəyin birlikdə keçirdiyi ilk həftə sayılır.

*Samirə Tağıyeva*

# Qubada avtomobil oğurlayan keçmiş məhkum tutulub



**Quba rayonunda avtomobil oğurlayan keçmiş məhkum yaxalanıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Quba Rayon Polis Şöbəsinə şəhər sakini S.Dadaşova məxsus "VAZ-2107" markalı avtomobilin fevralın 16-da saat 16 radələrində Aşağı Atuc kəndi ərazisindən qaçırılması barədə məlumat verilib.**

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində həmin avtomobillə Xaçmaz şəhəri ərazisində yol-nəqliyyat hadisəsi törədildiyi müəyyən edilib. Nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən Qusar rayon sakini, əvvəllər məhkum olunmuş R.Mirzəliyev müəyyən edilərək saxlanılıb. Onun sərxoş halda olduğu aşkarlanıb. Faktla bağlı rayon polis idarəsində araşdırma aparılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**